DÜŞÜNƏN İNSAN - İyun 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# içindəkilər

DÜŞÜNƏN İNSAN ; İYUN 2013

Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Ertələmək ancaq küfrü artırır 8
Kommunizm nə üçün bəşəriyyət üçün böyük təhlükədir? 12
Bir ayə, bir açıqlama 15
Qəflətdən xilas olmaq üçün... 25
Din xurafata deyil, Qurana əsaslanır 26
Hissləri saxlayan hafizə molekulu 30
Əllərimizdəki təqlid edilməz yaradılış 32
Təəccüb doğuran möcüzə: yeriyən zülallar 34
Boş və faydasız işlərdən üz çevirmək 37
Stounhenc 38
Müsəlmanların ən mühüm vəzifəsi Allah rizasını qazanmaq üçün axirətə hazırlaşmaqdır 52
Kainatdakı möcüzəvi dinamika: sürət 54
Zəhəri zərərsizləşdirən quşlar: araralar 60
Yuxuda yaşadığımız hisslər dünyası 62
Yaralı təqlidi edən quşlar 64

Hz. Məhdinin (ə.s) fiziki xüsusiyyətləri 16

ELM TARİXİNİN ƏN BÖYÜK SAXTAKARLIĞI: TƏKAMÜL NƏZƏRİYYƏSİ 18


STROMATOLİTLƏR: TƏKAMÜL NƏZƏRİYYƏSİNİ TƏKZİB EDƏN 3.9 MİLYARD İLLİK CANLILAR 40

Quranda hz. İbrahimin duaları 58




Maksimum sürəti 320 km/saat olan Yaponiyanın Şinkansen qatarlarının müəyyən sürətə çatana qədər çıxardığı səsin səbəbi təkərlərinin relslər üzərində hərəkətidir. Ancaq sürəti 200 km/saatdan çox olduqda səsin əsl mənbəyi qatarın havanın içində hərəkəti nəticəsində meydana gələn aerodinamik uğultudur. Aerodinamik uğultu hava axınında əmələ gələn hava girdablarından qaynaqlanır. Girdablar böyüdükcə səs də artır.

Bu uğultunu aradan qaldırmaq üçün tədqiqat aparan mühəndislər sürətli, ancaq səssiz uçan bayquşdan nümunə götürüblər. Bayquşun qanadında çoxlu qırışlı çıxıntılar olduğuna görə böyük hava girdabları əvəzinə kiçik girdablar əmələ gəlir və nəticədə bayquş çox səssiz uçur. Yapon mühəndis və dizaynerlərin bayquş qanadlarının bu xüsusiyyətlərini öyrənib texnologiyaya tətbiq etməsi daha səssiz qatarların istehsalına təkan vermişdir.



"Milli mənəvi dəyərlər bizim üçün hər şeydən üstündür. Biz öz dini və milli ənənələrimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir Azərbaycan qururuq".

**İlham Əliyev**

Şamaxı Cümə məscidinin əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmə mərasimindən

17 may 2013



# Elmi-Texnoloji Xəbərlər

## 520 milyon il yaşında ən qədim beyin fosili

Amerikalı paleontoloqlar indiyədək elmə məlum olan ən qədim fosilləşmiş beyini aşkara çıxarıblar. Bu beyin 520 milyon il əvvəl Çinin Yunyan vilayətinin ərazisində yaşamış buğumayaqlıya - Fuxianhuia protensa`ya aiddir.

“Nature” jurnalının xəbərinə görə London Təbiət Muzeyindən olan paleontoloq Qreqori Eckomb (Gregory Edgecombe) və onun qrupu bu gözəl şəkildə saxlanmış fosili ətraflı araşdırmışdır. Qreqori Eckomb 520 milyon il yaşı olan fosil barədə bunları demişdir:

“Biz bu beyinin mürəkkəblik dərəcəsinə görə xərçəngkimilər və həşəratların malik olduqları mürəkkəb beyin ilə eyni olmasına təəccübləndik. Bu beyin kimi omar və krevetlərin də beyinləri üç seqmentdən ibarətdir və göz budaqlarında çoxlu sinir lifləri var. Belə quruluşlu beyinin yarım milyard il ərzində heç bir dəyişikliyə məruz qalmadan qalması heyranedicidir.” (http://www.nhm.ac.uk/about-us/news/2012/october/oldest-fossil-of-complex-brain-identified113541.html)



London Təbiət Muzeyindən başqa bir elm adamı olan paleontoloq doktor Hioya Ma (Xiaoya Ma) isə bunları demişdir: “Biz bu canlıların beyinlərinin kompleksliliyinə çox təəccübləndik, çünki bu canlıların çox primitiv beyinə malik olduğunu zənn edirdik. “Fuxianhuia”nın beyini həşəratlar və xərçəngkimilər - omar və yengəclərin beyini kimi çox mürəkkəbdir. Bu o deməkdir ki, mürəkkəb sinir sistemi artıq yarım milyard ildir mövcuddur.”



## Yerə düşən iPhone-ları qorumaq üçün yeni üsul

Apple mütəxəssisləri pişikləri müşahidə edərək ağıllarına gözəl bir fikir gəlib. Məlumdur ki, pişikləri hündürlükdən kürəyi üstə buraxsaq da yerə mütləq ayaqları üstə düşər və beləliklə bədənləri xəsarət almaqdan qorunar.

İndi də bu xüsusiyyəti iPhone üçün reallaşdırmaq qərarına gəlinib. Hətta bu texnologiya üçün patent almaq üçün xüsusi qurumlara müraciət də olunub.

Bu texnologiya sayəsində iPhone-lar əlimizdən və ya məsələn, stoldan düşdükdə sərbəst düşmə avtomatik müəyyən olunaraq ağırlıq mərkəzinin yerini dəyişən mexanizm işə düşəcək və pişiklər kimi havada fırlanaraq zədələnməkdən maksimum qorunacaq, ekranı zədələnməkdən qorunacaq, ən dözümlü hissəsi üzərinə düşəcək.

Bunun müəyyən olunması üçün telefonlardakı giroskop, akselerometr, GPS və hətta fotokameradan yararlanacaqlar.

Gələcəkdə isə bu texnologiyadan smartfonlar, planşetlər, pleyerlər, fotoaparatlar və s. avadanlıqlarda tətbiq olunacaq.

# İslam Dünyasında

## Dövlət başçısına Qurani-kərim hədiyyə olundu

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtdakı Cümə məscidində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Məscidin axundu Rauf Sərdarov dövlət başçısına məscidin bərpa olunub müsəlmanların ixtiyarına verilməsinin çox sevindirici olduğunu bildirib: "Sizin bu gün buraya gəlişiniz bir neçə cəhətdən bizim üçün bayramdır. Əvvəla, ölkənin rəhbəri şəhərimizə, məscidimizə gəlib. Bu, bizim üçün bayramdır. Bu gün həm də məscidimizin açılışı olacaqdır. Bu, ikinci bayramdır. Üçüncü bayram isə məscidimizin adı ilə bağlıdır. Bu, "Cümə məscidi" adlanır. Siz də çox gözəl gündə, cümə günündə buraya gəlmisiniz. Cümə günündə də yüz minlərlə insan bir araya yığışıb ibadət, dua edirlər. Cümə Allah'ın rəhminin yerdə nazil olan günüdür".

Dövlət başçısına Qurani-kərim hədiyyə olunub. Prezident İlham Əliyev də çıxış edib: "Çox sağ olun. Doğrudan da əlamətdar bir gündür. Mən iki il bundan əvvəl gəlmişdim. Tikinti işlərinə bərabər baxırdıq. İndi ən yüksək səviyyədə tikilibdir. Həm xarici görünüşü, həm daxili tərtibatı gözəldir. Faktiki olaraq, yenidən tikilibdir. Minarəsi tikilibdir. Bütün lazımi şərait vardır. İstilik, kondisioner, böyük həyət vardır. Yəni burada ibadət üçün bütün imkanlar vardır. Bu məscid bir sənət, memarlıq əsəridir. Elə də olmalıdır. İki minə yaxın məscid vardır. Onların böyük əksəriyyəti müstəqillik dövründə tikilibdir. İndi qədim vaxtlardan bizə miras qalan məscidlərin bərpası ilə də məşğuluq. Bu yaxınlarda Azərbaycanın ən qədim məscidi olan Şamaxı Cümə Məscidinin də açılışını edəcəyik. Bu məscid 743-cü ildə tikilibdir. İndi onun yenidən tikilməsi başa çatır. Orada köçürülmələr də var idi, yollar da genişləndirildi.

Bakıda dini, tarixi abidələrimizin bərpasından da dəfələrlə söhbət aparmışıq. Təzəpir Məscidi, Bibiheybət Məscidi, Əjdərbəy Məscidi. Binəqədidə ölkəmizin ən böyük məscidi tikilib. Bu, həm bizim müqəddəs dinimizə olan münasibətimizdir, eyni zamanda, İslam aləmində Azərbaycan indi çox görkəmli yer tutur. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə mötəbər tədbirlər keçirilir. Müsəlman aləmində Azərbaycan çox böyük hörmətə malik olan bir ölkədir. Nəinki Azərbaycanda, müsəlman aləmində İslam həmrəylinin gücləndirilməsi üçün biz əlimizdən gələni əsirgəmirik. Belə gözəl, dini, tarixi abidələrin tikintisi, bərpası bundan sonra da davam etdiriləcəkdir".





# Keçən Ay

## İlham Əliyev "MDB müsəlmanları sülh və sabit inkişaf naminə" mövzusunda Bakıda keçirilən konfransın iştirakçılarını qəbul etmişdir

Konfransda Azərbaycan Prezidenti İlham Əliyev dünyada cərəyan edən mürəkkəb proseslər fonunda tolerantlığın, dinc yanaşı yaşamanın və qarşılıqlı etimadın möhkəmləndirilməsinin əhəmiyyətindən danışaraq bildirdi:

- Təəssüf ki, bizim bütün səylərimizə baxmayaraq, dünyada həyəcanlı proseslər gedir. Antiislam, islamofobiya təbliğatı aparılır. Biz nə qədər çalışsaq da, hər halda, kütləvi informasiya vasitələrində bu terminlər işlədilir. Terrorçuları "islamçı" adlandırırlar. Terrorçunun nə milləti, nə də dini vardır.

Azərbaycanda milli mənəvi dəyərlərin möhkəmləndirilməsi işinə dövlət səviyyəsində daim diqqət yetirildiyini, dini-tarixi abidələrin bərpası və mühafizəsi sahəsində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycan dövlətinin ölkəmizin hüdudlarından kənarda da müxtəlif dinlərə məxsus məbədlərin bərpasında və tikintisində fəal iştirak etdiyini və bu işlərin bundan sonra da davam etdiriləcəyini vurğuladı.

Prezident İlham Əliyev: "Mən tez-tez bu barədə deyirəm: cəmiyyətimizin əsasında mənəvi-tərbiyəvi prinsiplər durur. Əgər biz bunu itirsək, cəmiyyət olmayacaqdır. Onda biz bünövrəni itirmiş olarıq. Biz həm dinimizi, həm dilimizi, həm ədəbiyyatımızı, həm də incəsənətimizi qoruyub saxlamışıq. Müstəqillik illərində də bu mövqeləri möhkəmləndirmişik. Gənclər də milli ruhda tərbiyə olunmalı, savadlı olmalıdırlar.



## İstanbulda dünyanın ən böyük "Həzrəti Muhəmməd Muzeyi" açılacaq

"Əsri-Səadət Dünyası / Siyər Muzeyi" adlı muzeydə hz. Muhəmməd peyğəmbərin (s.ə.v) geyimləri, istifadə etdiyi əşyalar, Məscidi-nəbəvi, Kəbəyə qədər həyatında yer alan bütün əşya və məkanların eynisi sərgilənəcək.

Muzey Siyər Vəqfi tərəfindən inşa ediləcək.

Vəqfin sədri Mehmet Kayanın sözlərinə görə, muzeyin 2016-cı ildə istifadəyə verilməsi gözlənilir. Eyüp bölgəsindəki 3.500 $m^2$-lik bağlı sahədə inşa ediləcək muzey 6 mərtəbədən ibarət olacaq.

Muzey üçün dünyanın müxtəlif yerlərindən əşyalar və kitablar gətiriləcək. İslam və Avropa ölkələrində - dünyanın hər bir ölkəsində hz. Muhəmmədlə əlaqədar nə varsa, eynisini yaradıb burada göstərəcəyik.

Əlyazma əsərlərin və nəşrlərin eynisini muzeydə nümayiş etdirəcəyik.

Muzeylə əlaqədar həm elmi, həm də müşavirə heyətinin yaradıldığını deyən vəqf sədri bildirib ki, Məkkə və Mədinədən gələn akademiklər bu layihənin həyata keçirilməsində iştirak edəcək: "Əsri-Səadət Muzeyi hz. Muhəmmədin 63 illik həyatından bəhs edəcək. Allah'ın izni ilə, bu muzey yalnız Türkiyədə deyil, dünyada bir yenilik olacaq".

# ERTƏLƏMƏK ANCAQ KÜFRÜ ARTIRIR

**Gecikdirmək ancaq küfrü artırır... (Tövbə surəsi, 37)**

Şeytanın insanların bəzilərinə verdiyi hiyləgər təlqinlərdən biri din əxlaqı ilə yaşamağı ertələməkdir. Şeytanın təlqininə inanan insan sonsuz həyatına təsir edən bu işi yaxın gələcəkdə asanlıqla həll etmək üçün yerinə yetirməyə vaxtı olduğunu düşünür. Bir saat sonra, bir həftə sonra, bir ay sonra, gələn il və ya yaşı bir az da irəlilədikdə edəcəyinə əmin olduğuna görə, Quran əxlaqı ilə yaşamağı ertələyir. Halbuki, uca Allah'ın hər insana dünya həyatında verdiyi möhlət bir gün mütləq sona çatacaq və bu müddətin bir il, bir ay, bir gün sonra, yoxsa indi sona çatacağı ancaq Allah dərgahında məlumdur. Buna görə, din əxlaqı ilə yaşamağı ertələmək böyük qəflətdir.

Bir bilik yarışını düşünün. Yarışda qalib gələnə böyük məbləğdə pul mükafatı veriləcək. Görəsən, iştirakçı yarış zamanı nə edər? Suallara cavab verməyi düşünər, yoxsa ətrafa tamaşa edər? Əlbəttə, sualların cavabını verməyə çalışar. Dünya həyatı da eynilə bu yarış kimidir. Bir gün sona çatacaq və hər canlı mütləq ölümü dadacaq. Elə isə hər insan dünya həyatına aldanaraq boş işlərlə vaxt keçirməməli, ömrünün hər anını, hər saniyəsini Allah rizasına uyğun keçirməlidir.

## Keçən zamanı geriyə qaytarmaq mümkün deyil

İnsanın nəfsi etmək istədiklərini, fikrindən keçənləri daha sonraya saxlamağa meyillidir. Bu xislətdə olan insan görəcəyi işi vacibliyini anlamadığına görə, tənbəllik edib sonraya saxlamağa çalışır. Gündəlik həyatda təxirə salınan bəzi adi işləri insan etməsə də, zərərlərini sonradan düzəltmək mümkün ola bilər. Ancaq burada məsələ

insanın din əxlaqı ilə yaşamasıdır. Din əxlaqını lazımınca qavramamış bəzi insanlar Allah'a və Qurana inandıqlarını, ancaq ibadətləri yaşlandıqda yerinə yetirəcəklərini deyirlər. Məsələn, həccə getmək, oruc tutmaq, beş vaxt namaz kimi fərz ibadətləri bu insanlar yaşlılıq dövrünə saxlayırlar. Halbuki, bir insanın şeytanın təlqini ilə Quran əxlaqı ilə yaşamağı ertələməsi düzəldilməsi mümkün olmayan səhvdir.

## Ölümü yaddan çıxarmaq olmaz

`İnsanların bir çoxu: "Bunu sabah edərəm", - deyərkən sabaha qədər yaşayacağına və hər şeyin planlaşdırdığı kimi olacağına əmin olaraq hərəkət edir. Ancaq insan qədərində yazılmış sabahda onu nələr gözlədiyini bilmədən bu planı qəti əminliklə quraraq yanılır. Allah Quranda buna qarşı insanları belə xəbərdar edir:

**Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "İnşaAllah, edəcəyəm!" – de... (Kəhf surəsi, 23-24)**

Əlbəttə, insanların sabah üçün plan qurması bu ayəyə əsasən, normaldır. Ancaq burada insanın plan qurması deyil, sonsuz həyatına təsir edən ən mühüm məsələni ertələməsi yanlışdır. Çünki ölüm insanı gözləmədiyi anda qarşılayır. Sevinib əylənərkən, ticarət mərkəzində ikən, səhərə yaxın yatarkən, işə getmək üçün evindən ayrılarkən və ya həyatı boyu hazırlaşdığı imtahana girərkən ölüm insana ani surətdə gələ bilər. Buna baxmayaraq, insanın öləcəyi vaxtı bilirmiş kimi ibadətləri yerinə yetirməyi ertələməsi böyük səhvdir. Çünki ölümlə qarşılaşdıqdan sonra insan nə qədər peşman olub geri qayıtmaq istəsə də, bir daha belə imkanı olmayacaq.

Hər insan yaşadığı anın dəyərini bilməlidir. İnsanın "mən indi gəncliyimi yaşayım, yaşlandıqda ibadətlərimi yerinə yetirər, axirətimi qazanaram" düşüncəsi ilə Allah qarşısında məsuliyyətini bilə-bilə ertələməsi böyük qəflətdir və insanın axirət həyatını itirməsinə səbəb ola bilər. Allah "Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: **"Mən indi tövbə etdim" –deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!" (Nisa surəsi, 18)** ayəsi ilə insanlara bu həqiqəti xatırlatmışdır.

### Əxlaqı gözəlləşdirməyi ertələmək də qəflətdir

İman gətirməyənlərin din əxlaqı ilə yaşamağa başlamamaq üçün daima bəhanələr gətirməsi və ertələməsi nə qədər səhvdirsə, iman gətirənlərin də yaşadıqları anın dəyərini bilməyib

əxlaqlarını gözəlləşdirmək üçün lazımi cəhdi etməmələri də yanlışdır. İnsan ibadətlərini yerinə yetirməyi ertələmədiyi kimi, gözəl əxlaqla yaşamağı, imanını dərinləşdirməyi, coşqun Allah sevgisini qazanmağı da təxirə salmamalıdır. Bu, insanı axirətdə çox utandırar, peşman edər. Bir müsəlman qüsurlarını düzəltməyi, cənnətə girməsinə vəsilə olan saleh işlər görməyi: "Bunu sonra edərəm və ya bu barədə sonra düşünərəm", - deyərək sonraya saxlamamalıdır. Çünki insanın həmin an iradəli olub dəyişdirməyə çalışmadığı bir səhvi axirətdə qarşısına çıxa bilər. İnsan bir həqiqəti əsla yaddan çıxarmamalı və bütün həyatını buna əsasən dəyərləndirməlidir: insan öz əli ilə etdiklərinin əvəzini alacaq. Buna görə, hər insan dünyasını və axirətini xilas etmək üçün cəhd etməklə məsuldur.

**Və (bilin ki) Allah əcəli çatan heç kəsə möhlət verməz... (Munafiqun surəsi, 11)**

Heç kəs qədərində müəyyən edilmiş vaxt gəldikdə ölümdən qaça bilməz, ölümünü ertələyə bilməz. Ona görə, bir saniyə sonra yaşayacağına dair zəmanəti olmayan, harada və nə vaxt öləcəyini əsla bilməyən insanın Quran əxlaqı ilə yaşamağı ertələyib uzunmüddətli planlar qurmasının nə qədər böyük qəflət olduğu aydındır.

Ağıllı insan müvəqqəti dünya həyatına aldanan və axirəti bir kənara qoyan insanların əksinə, əsl həyatın axirət olduğunu, dünyanın isə imtahan yeri olduğunu dərk edir. Bu cür baxdıqda, əslində, dünya həyatının çox qısa olduğu daha yaxşı başa düşülür. Bunun üçün heç vaxt itirmədən, Allah'ın əmr və qadağalarına əməl edərək Onun rizasına uyğun yaşamaq lazımdır.

## Hər yeni gün Allah'ın qullarına rəhmətidir

Heç bir insan günlərini vaxt keçirmə psixologiyası ilə yaşamamalıdır. Keçən vaxtı geri qaytarmağın əsla mümkün olmadığını bilərək vaxtını yaxşı dəyərləndirməlidir. Oyandığımız hər yeni gün Rəbbimizin Ona yaxınlaşmağımız, rizasını qazanmağımız üçün lütf etdiyi rəhmətdir. Bir günü adi 24 saatlıq müddət kimi deyil, Allah'ın rizasını qazanmaq üçün yeni fürsət kimi dəyərləndirmək insanın bu müddətdən öz lehinə istifadə etməsi baxımından çox vacibdir. Hər insan yaşadığı hər günü yeni bir səhifə kimi qəbul etməli və bu səhifəyə gücü çatdığı qədər çox saleh əməl yazmağa çalışmalıdır. İnsanın günün sonunda bütün gününün Allah üçün bir çox xeyirlə dolu olduğunu görməsi vicdanını rahatladan vəsilələrdəndir. Sonraya saxlamadan,

vaxtında edilən ibadət, gecikdirmədən qazanılan bir gözəl əxlaqi xüsusiyyət müsəlman üçün qazancdır və möminin uca Rəbbimizə olan təslimiyyətini, sevgisini, inancını, imanını göstərməsi üçün lütfdür.

**Kim yaxşı bir iş görsə, xeyri özünə, kim də bir pislik etsə, zərəri özünə olar! Sonra siz öz Rəbbinizə doğru qaytarılacaqsınız. (Casiyə surəsi, 19)**

İnsan, Allahın izni ilə, iradəsi ilə səy göstərib cənnəti ümid etməyin yerinə tənbəllik edib ertələyərsə, bununla, dünyasını və əbədi axirət həyatını itirəcəyini unutmamalıdır. Xeyir gətirən bir işin sonraya saxlanması insana gözlənilməz itkilər qazandırar. Xeyirli işləri yubatmaqdan çəkinən insan isə daima irəliləyər, Allah'ın izni ilə, çox qısa müddətdə kamilləşdiyini və imanını dərinləşdirdiyini görər.

Hər insan vicdanən daima doğruları bilir, lakin bu doğruları tətbiq etmək nəfsinə çətin gəldiyinə görə, bəzi insanlar müxtəlif bəhanələr gətirirlər. Ancaq bu insanlar bəhanələrlə rahatlıq tapmazlar. Əksinə, vicdanlarının səsini qulaqardına vurduqlarına görə, həmişə sıxıntı çəkərlər. Axirətdə isə əbədiyyən davam edəcək şiddətli əzabla qarşılaşarlar.

## "Sonra edərsən" Fikri şeytanın vəsvəsəsidir

Qədərində müəyyən edilmiş müddətə qədər yaşayan bir insan bu müddəti uzadıb ləngidə bilməz. Şeytanın əsas taktikası olan "sonra edərsən" fikri onun insanlar üzərində oynadığı oyunlardan biridir. Şeytan daima xeyirli və gözəl işlərin sonraya saxlanmasını, insanın boş işlərlə məşğul olmasını istəyir. Halbuki, Allah'ın əmrinə laqeyd yanaşmaq və ya gecikdirmək insanı məsuliyyətdən azad etməz.



# KOMMUNİZM

Dünyada olduğu kimi, ölkəmizdə də bəzi insanlar başlarına gələcək şeyləri dərk etmədən kommunizm adlı təhlükənin müasir dövrdə olmadığını deyərək yanılırlar. Kommunizmin XX əsrin fəlakəti olduğunu, o dövrdə hakim olub süqut etdiyini və artıq bu təhlükənin keçdiyini zənn edirlər. Bu fikrə o qədər inanıblar ki, nə başlarına gələcək təhlükədən xəbərdardırlar, nə də buna qarşı tədbir görürlər. Əksinə, “Kommunizm təhlükəsi yoxdur”, - deyərək həm ətrafdakı insanları laqeydliyə sürükləyir, həm də özləri bu bəlanın içinə düşürlər. Bu yanaşma tərzi ilə kommunist ideologiyanın asanlıqla güclənməsinə, kök salaraq yayılmasına imkan verirlər. Çünki insanlar: “Artıq kommunist təhlükə yoxdur”, - deyərək rahatladıqda və bu bəlaya qarşı heç bir tədbir almadıqda kommunizm güclənib yayılır. “Kommunizm təhlükəsi XX əsrdə sona çatıb” deyənlər çox yanılırlar. Kommunizm əsla məhv olmamışdır. Darvinizm mövcud olduqca kommunizm də olacaq. Çünki hər ikisinin kökündə eyni ortaq fəlsəfə var: dialektik materializm. Darvin bu düşüncə tərzini təbiətə, Marks isə tarix və sosial elmlərə tətbiq etmişdir. Ona görə, XX əsrdə olduğu kimi, indi də marksizm var və darvinizm hökm sürdükcə əsla dünya siyasətindən yox olmayacaq.

Belə ki, hal-hazırda darvinist diktatorluq bütün dövlətlərə, təhsil qurumlarına, mətbuat orqanlarına hakimdir. Bu hakimiyyət kommunist ideologiyanı qidalandırır, təhsil sistemi isə kommunist yetişdirməkdə davam edir. Qısaca desək, KOMMUNİZM HAL-HAZIRDA SADƏCƏ PUSQUDADIR.

## Kommunizm gizli şəkildə varlığını davam etdirir

“Bir addım irəli, iki addım geri” strategiyasının bir nəticəsi olaraq kommunizm hələ də gizli şəkildə varlığını davam etdirir. Xüsusilə Rusiyada iqtidar və bürokratiya kadrlarının hamısı keçmiş kommunistlərdən təşkil olunub. Dialektik materializmlə tərbiyə edilmiş bu insanlar kommunizm xəyallarından əl çəkməyiblər. Əksinə, kommunizmin kapitalist mərhələdən keçməli olduğuna inananlar kommunist olmaq üçün kapitalizmin hakimiyyətinə tamaşa edirlər. Əsl kommunist olduqlarına görə, hal-hazırda kapitalizmi tətbiq edir və müdafiə edirlər.



# Nə üçün bəşəriyyət üçün böyük təhlükədir?

Bu vəziyyət təkcə Rusiyada deyil, bütün dünyada belədir. Avropanın, demək olar ki, bütün ölkələrində kommunist partiyalar fəaliyyətlərini davam etdirir, hətta bir qismi çoxlu səs qazanırlar. Keçmiş şərq bloku ölkələrinin, demək olar ki, hamısında kommunist kadrlar tərəfindən idarə edilən sosialist partiyalar var. Kommunist yazıçı və şairlər, incəsənət adamları səssiz də olsa, bir kənarda gizli fəaliyyət göstərərək kommunist düşüncə tərzini insanların şüuraltına yerləşdirən mesajlar verirlər. Əslində, dəyişən heç nə yoxdur. Onlar sadəcə kapitalizmin onlara şərait hazırlamasını səbirlə gözləyir, yəni Marksın nəsihətinə əməl edirlər.

Ancaq bəlkə də kommunistlərin ən çox işinə yarayan şey hal-hazırda bütün dünyanı bürüyən iqtisadi böhrandır. Qısa müddət əvvəl iqtisadi və demokratik strukturun zədələnməyəcəyinə inanarkən bir anda bütün dünyanı böyük iqtisadi böhran bürüməsi insanların siyasi meyilliyi ilə yanaşı, həyata baxışını da böyük ölçüdə dəyişdirmişdir. Bu, kommunistlər üçün mühüm mənfəət vasitəsidir. Məlumdur ki, tarixdə 1929-cu ildə baş vermiş Böyük Böhran nəticəsində bütün dünyada iqtisadi tənəzzül meydana gəlmiş, bu da Avropadakı kommunist və faşist partiyaların populyarlığını dərhal artırmışdı. Böyük Böhranı kapitalist sistemin süqutu kimi qələmə verən kommunistlər kütlələrə daha asan təsir etmək imkanı əldə etmişdilər. Xalq çarəsizlikdən yeganə yolun kommunizm olduğunu qəbul etməli olmuşdu.

Hal-hazırda da belə bir təhlükə var. Pusquda gözləyən bütün keçmiş kommunist nəsillər, onların yetişdirdiyi yeni kommunist qruplar və kommunist gənclər bu cür iqtisadi böhrandan faydalanmağa çalışırlar. Ona görə, bu illər kommunizm təhlükəsinin yenidən dünya siyasətində təsirli mövqe qazanması üçün çox əlverişlidir. Kommunist partiyaların böyük qismi iqtisadi böhranı ölkələri kommunist bataqlığın içinə çəkmək üçün həyati əhəmiyyətli fürsət kimi görürlər.

## Kommunizmə qarşı təcili elmi fəaliyyət göstərmək vacibdir

Dünya kommunist terror bəlasından xilas olmaq istəyirsə, dünya səviyyəsində antikommunist və antimaterialist elmi fəaliyyət

Düşünən İnsan, İyun 2013





göstərilməlidir. Bu cür fəaliyyəti lüzumsuz və təsirsiz hesab edənlər, darvinizmi ancaq təbiət hadisələri ilə məhdudlaşdırılmış nəzəriyyə kimi dəyərləndirənlər təhlükənin böyüklüyünü dərk etmirlər. Hal-hazırda PKK terror təşkilatı da darvinizmin ideoloji əsaslarını tətbiq edən Stalin, Lenin, Mao, Pol Potla eyni məntiqdədir. Kommunizmə dəstək verən ideoloji bünövrə, yəni darvinizm birbaşa hökumətlər və dövlət qurumları tərəfindən müdafiə edilirsə, terroristlərə silahlarını yerə qoymaqlarını demək çox çətindir.

Darvinizm olduqca kommunist təhlükə də varlığını davam etdirəcək. Bəladan xilas olmaq üçün YEGANƏ ŞƏRT DARVİNİZMİ İDEOLOJİ CƏHƏTDƏN TAMAMİLƏ MƏHV ETMƏKDİR.

## Kommunizm XX əsrə təzyiq, zülm, qan və göz yaşları ilə damğasını vurmuşdur

Tarixçilərin hesablamalarına əsasən, təkcə bu ideologiyaya görə XX əsrdə 120 milyon insan öldürülmüşdür. Bunlar müharibə zamanı cəbhədə ölən əsgərlər deyil, kommunist dövlətlərin öz xalqlarının içindən öldürdüyü mülki insanlardır. 100 milyon kişi, qadın, yaşlı, uşaq, körpə məhz kommunizm adlanan bu soyuq, qatı, sərt, vəhşi ideologiyaya görə həyatını itirmişdir. Habelə, kommunist rejimlər tərəfindən əsas hüquq və azadlıqlarından məhrum olan, deportasiya edilən, sistemli şəkildə törədilmiş qıtlığa məruz qalan, həbs edilən, əmək düşərgələrində qul kimi işlədilən on milyonlarla insan var. Milyonlarla insan da kommunist partizan qruplarının, terror təşkilatlarının güllələrinə hədəf olmuş və hədəf olma qorxusu altında yaşamışdır. Ancaq bu təhlükə hələ yer üzündən silinməmişdir: KOMMUNİZM PUSQUDADIR!

120 milyon insanın canı bahasına bu "qan tökmə quyusu" hələ də varlığını davam etdirir. Quyunun üstü örtülmüşdür, ətrafına quyunu kamuflyaj edən şeylər qoyulmuşdur, ancaq quyu tələdir. Kommunizm hiyləgərcəsinə gizlənərək fəaliyyətinə davam edir. Fərqli görünüşdə, fərqli adlar altında varlığını davam etdirir və bəşəriyyətə yenə keçmişdəkilərə bənzər əziyyətləri vermək üçün fürsət gözləyir. Məhz buna görə, kommunist ideologiyanın əsl üzünü, keçmişdə səbəb olduğu əziyyət və bəlaları bütün insanlara çatdırmaq və gizlənərək böyüyən bu təhlükənin maskasını çıxarmaq hər müsəlmanın ən mühüm vəzifələrindən biridir.



# Bir ayə, Bir açıqlama

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların ürəklərinə arxayınlıq göndərən Odur... (Fəth surəsi, 4)**

Allah bu ayədə möminlərə mənəvi dəstəyindən xəbər verir. Rəbbimiz çətinlik anında səmimi möminlərin qəlblərinə arxayınlıq verir və bu mənəvi dəstəyi nəticəsində möminlərin üzərinə rahatlıq və qətiyyət gəlir.

Əslində, bu rahatlıq və arxayınlıq hissi möminlərin bütün həyatına hakimdir. Allah'a və axirətə iman gətirən insanlar Allah'ın hər şeyin yeganə hakimi olduğunu bildikləri üçün heç bir hadisəyə görə təşvişə düşmür, kədərlənmirlər. Sonsuz rəhmət sahibi olan Rəbbimizin hər şeyi onlar üçün ən xeyirli, axirətləri baxımından ən faydalı şəkildə yaratdığını bilir və Allah'a təvəkkül edib mənəvi cəhətdən rahat olurlar. Qarşılaşdıqları çətinliklər nə qədər böyük görünsə də, nəticədə, müvəqqəti olduğunu anlayırlar. Çünki dünyadakı həyatın sonsuz axirət həyatı ilə müqayisədə çox qısa olduğunu unutmurlar. Dünyadakı çətinlik insanın bütün həyatı boyu davam etsə də, ən çox 50-60 il çəkəcək. 50-60 il təvəkkül və gözəl əxlaqla keçirilən ömrün sonunda insanın əbədi cənnət həyatındakı mükafatının tayı-bərabəri yoxdur. Cənnətdə möminlər heç bir sıxıntı, kədər, yoxsulluq, bezginlik, çətinlik çəkməyəcək, əksinə, nəfslərinin arzu etdiyinə qovuşaraq orada əbədi qalacaqlar.

Bu həqiqəti dərk edən mömin hər hadisəyə sarsılmaz təvəkküllə yanaşar. Bundan irəli gələn rahatlıq və sevinc hissi də dünyadakı ən böyük nemətlərdən biridir. Unutmaq olmaz ki, bütün qəlblər və güc Allah'ın əlindədir. Allah istədiyi an istədiyi hadisəni istədiyi kimi yaradır. Rahatlıq və arxayınlıq axtaran insan Allah verməsə, heç cür buna nail ola bilməz. Din əxlaqı ilə yaşayan insan hər şeyin Allah'ın nəzarəti altında olduğunu bilərək rahat olur. Hər işində Allah'a üz tutan, hər işinin qarşılığını ancaq Allah'dan gözləyən insana Allah daima müxtəlif səbəblər vasitəsilə yardım edib dəstək olar.

# Hz. Mehdinin (ə.s)

Səid bin əl-Müsəyyəbdən (r.ə.) rəvayət edilir: Peyğəmbərimiz (s.ə.v.) belə buyurdu:

*Mehdi qızım Fatimənin nəslindəndir.*

(Sünen-i Ibn Mace, 10/348)

*Mehdi ilə müjdələnin. O, Qüreyşdən və əhli-beytimdən olan bir şəxsdir.*

(Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman , 13)

*Onun alnı geniş, burnu isə incə olacaq.*

(Tırmizi, Büyük Hadis Külliyatı, Rudani 5-ci cild, səh. 365)

*HZ. MEHDİNİN (Ə.S.) saçı gurdur, alnı genişdir və alnında yüngül çökək var. BURNU KİÇİKDİR VƏ KÖRPÜ HİSSƏSİNDƏ ÇOX KİÇİK ÇIXINTISI VAR...*

(Bihar-ül Envar, 13-cü cild)

*Allah'u Təala mənim nəslimdən ALNI AÇIQ, yer üzünü ədalətlə dolduraraq malı və əşyanı insanlara bol-bol paylayan bir övladımı göndərəcək.*

(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 23)

*Hz. Mehdi (ə.s.) qıyıq gözlüdür.*

*Humran bin AYAN deyir ki:*

*İmam Muhəmməd Baqir əleyhissalama belə dedim: ... Mehdinin GÖZLƏRİ QIYIQDIR ...* (Şeyh Muhammed b.İbrahim-i Numani, Gaybet-i Numani səh. 252)

*Mehdinin saqqalı gur, ön dişləri parlaq, alnı açıqdır və üzündə xal var.*

(Mer'iy b. Yusuf b. Ebu Bekir b. Ahmet b. Yusuf el-Makdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

*Qaşı qövsvaridir.*

(Muhammed B. Resul Al-Hüseyni El Berzenci, "Kıyamet Alametleri" Pamuk Yayınları, Trc. Naim Erdoğan, səh. 163)

*Dişləri parlaq olacaq.*

(Nuaym b. Hammad, vr. 52a; El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 41)

*Hz. Mehdinin (ə.s.) üzü qızılı-bürünc metal kimi parlayacaq. ELƏ PARLAQ OLACAQ Kİ, DƏRİSİNİN ƏSL RƏNGİ GÖRÜNMƏYƏCƏK.*

(Bihar-ül Envar, 13-cü cild, səh. 263)

*Rəsulullah (s.ə.v) buyurdu:*

*(HZ. MEHDİNİN (Ə.S.)) ... SAÇLARI QULAĞININ ÜZƏRİNDƏ QIVRILIR...*

(Remembrance of The Beloved, Questions and AAnswers About Imam Mahdi (p. b. u. h) , By Seyed Husain Husaini)

# fiziki xüsusiyyətləri

*O, gənc adamdır. Orta boyludur. Gözəl üzü var. Saçları çiyinlərinin üstünə sallanır. Üzünün nuru ona əzəmət verir. Saçları qaradır. Saqqalı qaradır".*
(Mer'iy b. Yusuf b. Ebu Bekir b. Ahmet b. Yusuf el-Makdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

*Dərisi ərəbi rəngdədir.*
(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman,24)
**Qeyd: Ərəb irqinin dəri rəngi qırmızımtıl-ağdır.**

*Mehdi orta boylu olacaq.*
(Kıyamet alametleri)
(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 41)

*O (hz. Mehdi) alnı açıq... qarnı böyük, İKİ OMBA ARASI AÇIQ...*
(Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar, səh. 13)

*...(Hz. Mehdinin (ə.s.)) İKİ ÇİYİNLƏRİNDƏN AŞAĞIDA YARPAĞA BƏNZƏYƏN BİR LƏKƏ VAR.*
(Mucem-ul Ehadis-i İmam Mehdi3-cü cild, səh. 283, h. 766)

*HZ. MEHDİNİN (Ə.S.) ÇİYNİNDƏ PEYĞƏMBƏRİMİZDƏKİ (S.Ə.V.) KİMİ PEYĞƏMBƏRLİK MÖHÜRÜ OLACAQ.*
(Ahmed ibn-i Hacer-i Mekki (Heytemi), "Beklenen Mehdi'nin alametleri", El-Kavlu Fi Muhtasarr Fi Alamatil Mehdiyy-il Muntazar, 41)

*O (HZ. MEHDİ (Ə.S.)), YAŞIL GÖZLÜ ... bir gəncdir...*
(Mehdi ile ilgili gelen haberler, (Nurul Ebsar) Ehl-i Beyt & Oniki İmam, Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250),Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık, Nisan 2004, cild: 628 77 93) səh. 588-589)

*...Vəd verilmiş Qaim (hz. Mehdi (ə.s.)) O QƏDƏR GÜCLÜDÜR Kİ, YER ÜZÜNDƏKİ ƏN BÖYÜK AĞACA DA ƏL ATSA, ONU KÖKÜNDƏN QOPARIB ÇIXARAR...*
(Bihar-ul Envar, 52-ci cild, səh. 32; İsbat-ul Hudat, 6-cı cild, səh. 19)

*(Hz. Mehdinin (ə.s.)) ... DODAQLARI MÜKƏMMƏL VƏ GÖZƏLDİR, gözəl görünüşlü və yaraşıqlıdır. ÜZÜ İFFƏT NURU İLƏ DOLUDUR VƏ GÖRKƏMLİDİR. GÖRKƏMLİ LİDER GÖRÜNÜŞÜ VAR ...*
(Remembrance of The Beloved, Questions and Answers About Imam Mahdi (p. b. u. h) , By Seyed Husain Husaini)

# ELM TARİXİNİN ƏN BÖYÜK SAXTAKARLIĞI:

Elm tarixi həmişə müxtəlif saxtakarlıqlara şahid olub. Kəşf etdiyi dərmanla şikəstləri yeridəcəyini, keçəllərə saç bitirəcəyini iddia edənlər, bütün xəstəlikləri sağaldacağına insanları inandıran Mesmer və ya Rasputin kimi şarlatanlar...

Bu məşhur saxtakarlardan başqa bəzən qəzetlərdə dərc olunan, başqasının elmi tezisini oğurlayaraq karyera sahibi olmağa çalışmaq kimi kiçik saxtakarlıqlar da var.

Ancaq elm tarixindəki ən böyük saxtakarlıqlar, şübhəsiz ki, təkamülçülərə aiddir. Təkamülçülərin etdiyi saxtakarlıqları digərlərindən fərqləndirən ən əsas cəhət onların saxtakarlığının sistemli olması və kollektiv hiylələrə, aldatmalara, təhriflərə əl atmalarıdır. Bunlar təkamül nəzəriyyəsi irəli sürüldüyü gündən bu günə qədər dəfələrlə və peşəkarlıqla həyata keçirilmişdir. Bu məqalədə təkamülçülərin etdiyi saxtakarlıqlardan bəzilərini təhlil edəcəyik. Ancaq əvvəlcə bir suala cavab vermək lazımdır: nə üçün darvinizmin tarixi belə saxtakarlıqlarla doludur?

Çünki təkamül nəzəriyyəsini başqa yolla müdafiə etmək mümkün deyil. Elmi kəşflər təkamülü təkzib etdiyinə görə, yeganə yol saxtakarlığa əl atmaq olur. Ya kəşflər gizlədilir və ya ört-basdır edilir, ya da təhrif olunaraq sanki təkamül nəzəriyyəsinə dəlil imiş kimi göstərilir. Cəmiyyət bunlar haqqında kifayət qədər məlumatlı olmadığına görə, bu saxta dəlillərə baxaraq təkamülü sübut edilmiş nəzəriyyə zənn edir. Tamamilə əsassız olan təkamül nəzəriyyəsini dirçəltmək üçün edilən yeganə cəhd ancaq






# TƏKAMÜL NƏZƏRİYYƏSİ

saxtakarlıqlardır.

İndi elm tarixindəki biabırçılıqlar kimi tanınan bu təkamül saxtakarlıqlarını təhlil edək.

## Təkamülçülərin ən əsas təbliğat metodu: rekonstruksiyalar, saxta və ya fantastik rəsmlər

Təkamülçülər nəzəriyyələrini dəstəkləyən elmi dəlillər tapmağa müvəffəq olmasalar da, bir məsələdə olduqca bacarıqlıdırlar: təbliğat. Bu təbliğatın ən əsas ünsürü isə rekonstruksiya adlanan saxta rəsmlərdir.

Rekonstruksiya "yenidən inşa" deməkdir və bircə sümük parçası tapılmış canlının şəklinin və ya maketinin düzəldilməsidir. Qəzetlərdə, jurnallarda, filmlərdə gördüyünüz "meymun adam"ların hər biri rekonstruksiyadır.



Ancaq insanın mənşəyi ilə bağlı fosil qeydləri çox dağınıq və natamam olduğuna görə, bunlara əsaslanaraq bir şey təxmin etmək tamamilə təxəyyül məhsuludur. Buna görə, təkamülçülərin fosil qalıqlarına əsaslanaraq düzəltdiyi rekonstruksiyalar tamamilə təkamül ideologiyasının tələblərinə uyğun hazırlanır. Harvard Universitetinin antropoloqlarından Devid Pilbim: "Mən paleoantropologiya sahəsi ilə məşğul oluram. Əvvəlcədən



qazanılmış təəssüratlardan ibarət nəzəriyyə bu elm sahəsində həmişə həqiqi faktlara üstün gəlib", - deyərək bu həqiqəti vurğulayır. Əyani vəsaitlərdən insanlar asanlıqla təsirləndiklərinə görə, məqsəd onları təxəyyül gücü ilə rekonstruksiyası hazırlanmış məxluqların keçmişdə həqiqətən yaşadığına inandırmaqdır.

Burada bir xüsusa diqqət etmək lazımdır: sümük qalıqlarına əsaslanaraq aparılan tədqiqatlarda ancaq əldə olan cismin çox ümumi xüsusiyyətlərini üzə çıxarmaq mümkündür. Halbuki, müəyyənedici təfərrüatlar zaman ərzində tez çürüyən yumşaq toxumalardır. Təkamülə inanan birinin yumşaq toxumalara istədiyi kimi forma verib fantastik məxluq düzəltməsi çox asandır. Harvard Universitetindən Ernest A. Huton bu vəziyyəti belə açıqlayır:

"Yumşaq hissələri yenidən inşa etmək çox risklidir. Dodaqlar, gözlər, qulaqlar və burun kimi orqanların sümüklərlə heç bir əlaqəsi yoxdur. Məsələn, bir Neandertal kəllə sümüyünü bu yolla həm meymuna, həm də filosofa bənzədə bilərsiniz. Qədim insanların qalıqlarına əsaslanaraq edilən rekonstruksiyaların heç bir elmi əsası yoxdur və cəmiyyəti istiqamətləndirmək məqsədi daşıyır... Bu səbəbdən, rekonstruksiyalara çox güvənmək olmaz".

Təkamülçülər bu sahədə o qədər irəli gedirlər ki, eyni kəllə sümüyündə bir-birindən çox fərqli üzlər rekonstruksiya edilir. Australopithecus robustus (Zinjanthropus) adlı fosil üzərində edilən, bir-birindən tamamilə fərqli üç ayrı rekonstruksiya buna ən bariz nümunədir.

Fosillərin birtərəfli şərh olunması və ya fantastik rekonstruksiyalar hazırlanması təkamülçülərin yalana nə qədər çox əl atdıqlarını göstərən dəlillərdəndir. Ancaq bunlar təkamül nəzəriyyəsi tarixində rast gəlinən bəzi konkret saxtakarlıqlarla müqayisə edildikdə çox adi görünür.

KİV-də və akademik mənbələrdə daima təlqin edilən "meymun insan" imicini dəstəkləyən heç bir konkret fosil yoxdur. Təkamülçülər əllərinə fırça götürüb xəyali məxluqlar çəkirlər. Ancaq bu canlıların fosillərinin olmaması onlar üçün böyük problemdir. Bu problemi "həll etmək" üçün əl atdıqları yollardan biri isə tapmadıqları fosilləri "icad etmək" olub. Elm tarixinin ən böyük qalmaqalı olan Piltdaun adamı fosili buna misaldır.





## Toplanmış sümüklərdən düzəldilmiş "əcdad": Piltdaun adamı

Məşhur həkim və eyni zamanda həvəskar paleontoloq olan Çarlz Davson 1912-ci ildə İngiltərədə Piltdaun yaxınlığındakı bir çuxurda çənə və kəllə sümüyü tapdığını

iddia etdi. Çənə sümüyü meymun çənəsinə bənzədiyinə baxmayaraq, dişlər və kəllə insanınkına bənzəyirdi. Bu tapıntılar "Piltdaun adamı" adlandırıldı, 500 min illik yaş verildi və müxtəlif muzeylərdə insanın təkamülünə qəti dəlil kimi nümayiş etdirildi. 40 ildən artıq müddətdə bu tapıntı haqqında bir çox elmi məqalə yazıldı, şərhlər edildi, şəkillər çəkildi. Dünyanın müxtəlif universitetlərindən 500-dən çox akademik Piltdaun adamı haqqında doktorluq tezisi yazdı. Məşhur amerikalı paleoantropoloq H.F.Osborn da 1935-ci ildə Britaniya Muzeyinə getdikdə: "Təbiət sürprizlərlə doludur; bu, bəşəriyyətin qədim dövrləri haqqında mühüm tapıntıdır", - demişdi.

1949-cu ildə Britaniya Muzeyinin paleontologiya şöbəsindən Kennet Okli yeni yaş müəyyən etmə metodu olan ftor testini bəzi qədim fosillər üzərində sınaqdan keçirmək istəyir. Bu yolla Piltdaun adamı fosili üzərində də təcrübə keçirdi. Nəticə təəccüblü idi. Aparılan təcrübədə Piltdaun adamının çənə sümüyündə heç ftor olmadığı məlum oldu. Bu, çənə sümüyünün torpağın altında bir neçə ildən çox qalmadığını göstərirdi. Tərkibində az miqdarda ftor olan kəllə sümüyünün isə sadəcə bir neçə min il yaşı vardı.

Ftor metoduna əsaslanaraq aparılan sonrakı xronoloji tədqiqatlar kəllə sümüyünün bir neçə min il yaşı olduğunu üzə çıxardı. Çənə sümüyündəki dişlərdə isə süni aşınma prosesi həyata keçirildiyi, fosillərin yanında tapılan ibtidai alətlərin isə polad alətlərlə yonulduğu məlum oldu. Veynerin apardığı dəqiq təhlillərlə bu saxtakarlıq 1953-cü ildə tam aşkar edildi. Kəllə sümüyü 500 il yaşı olan insana, çənə sümüyü isə yeni ölmüş oranqutana aid idi! Dişlərin insana aid olduğunu göstərmək üçün sonradan əlavə edilib yeyə ilə yonulmuşdu. Sonra da digər hissələr qədim görünməsi üçün kalium-dixromat ilə ləkələnmişdi. Sümüyü turşuya batırdıqda bu ləkələr itirdi. Saxtakarlığı üzə çıxaran tədqiqat qrupunun üzvü Le Qros Klark: "Dişlərin köhnəldiyini göstərmək üçün süni müdaxilə olunduğu o qədər aydın görünürdü ki, bu qədər açıq-aydın izlər necə nəzərdən qaça bilərdi?" - deyərək təəccübünü gizlədə bilmirdi. Bütün bunlardan sonra "Piltdaun adamı" 40 il nümayiş olunduğu Britaniya muzeyindən dərhal götürüldü.






### "Nebraska adamı" adı ilə tanıtdıqları diş donuza aid imiş!

1922-ci ildə Amerika Təbiət Tarixi Muzeyinin müdiri Henri Fayrfild Osborn qərbi Nebraskadakı İlan dərəsi yaxınlığında Pliosen dövrünə aid azı dişi fosili tapdığını açıqladı. İddiaya görə, bu diş insan və meymunların ortaq xüsusiyyətlərini daşıyırdı. Çox

keçmədən mövzu ilə bağlı dərin elmi mübahisələr başladı. Bəziləri bu dişin Pithecanthropus erectusa olduğunu irəli sürür, bəziləri isə insana daha yaxın olduğunu deyirdi. Böyük mübahisələr doğuran bu fosil "Nebraska adamı" adlandırıldı. "Elmi" adı da dərhal uyduruldu: Hesperopithecus haroldcooki. Bir çox nüfuzlu elm adamı Osbornu dəstəklədi. Bu dişə əsaslanaraq Nebraska adamının kəllə sümüyü və bədəninin rekonstruktiv şəkilləri çəkildi. Hətta daha da irəli gedərək Nebraska adamının, arvadının və uşaqlarının təbii mühitdə ailəvi şəkilləri də dərc olundu.

Bütün bu ssenarilər bircə diş üzərində qurulmuşdu. Təkamülçü kütlələr bu fantastik adamı o qədər mənimsədilər ki, Uilyam Brayan adlı bir tədqiqatçı bir azı dişi üzərində bu qədər ön mühakimə ilə qərar verilməsinə qarşı çıxdıqda hamı ona şiddətlə qarşı çıxdı.

Ancaq 1927-ci ildə skeletin digər hissələri də tapıldı. Tapılan yeni hissələrə əsasən, bu diş nə meymuna, nə də insana aid idi. Dişin Prosthennops cinsindən olan vəhşi Amerika qabanının nəsli kəsilmiş növünə aid olduğu məlum oldu. Uilyam Qreqori bu xətanı açıqladığı "Science" jurnalındakı məqaləsinə belə başlıq qoymuşdu: "Göründüyü kimi, Hesperopithecus nə meymun, nə də insandır". Nəticədə, Hesperopithecus haroldcookinin və "ailə"sinin bütün rəsmləri elmi ədəbiyyatdan dərhal çıxarıldı.

## Ernst Hekkelin saxta rəsmləri

XIX əsrin sonunda Ernst Hekkel adlı təkamülçü elm adamı "Ontogenez filogenezi təkrarlayır" (Ontogeny Recapitulates Phylogeny) şəklində ifadə edilən və rekapitulyasiya nəzəriyyəsi adlanan nəzəriyyə irəli sürdü.

Hekkel irəli sürdüyü bu nəzəriyyə ilə canlı rüşeymlərinin inkişaf prosesi zamanı əcdadlarının keçirdiyi təkamül prosesini təkrarladıqlarını iddia edirdi. Məsələn, insan rüşeyminin ana bətnində inkişaf edərkən əvvəlcə balığa, sonra sürünənə bənzədiyini, nəhayət insana çevrildiyini irəli sürürdü.

Halbuki, sonrakı illərdə bu nəzəriyyənin tamamilə təxəyyül məhsulu olan ssenari olduğu məlum oldu. İnsan rüşeyminin ilkin inkişaf dövründə meydana gəldiyi iddia edilən "qəlsəmə"lərin, əslində, insanın orta qulaq kanalının, paratireoid və çəngələbənzər vəzlərin başlanğıcı olduğu üzə çıxdı. Rüşeymin "yumurta sarısı kisəsi"nə bənzədilən hissəsinin isə, əslində, körpə üçün qan hasil edən kisə olduğu aşkar edildi. Hekkelin və davamçılarının "quyruq" adlandırdığı hiss isə insanın onurğa sümüyüdür və ayaqlardan əvvəl formalaşdığına görə quyruq kimi görünür.






Bunlar elm dünyasında hər kəsə məlum olan həqiqətlərdir. Təkamülçülər də bunu qəbul edirlər. Neodarvinizmin banilərindən Corc Qeylord Simpson: "Hekkel təkamül prosesini səhv tanıtdı. Bu gün canlıların embrioloji inkişafının keçmişlərini əks etdirmədiyi artıq qəti məlum olub", - deyə yazır. "American Scientist" jurnalında dərc olunan bir məqalədə isə belə deyilir:

"Biogenetika qanunu (Rekapitulyasiya nəzəriyyəsi) artıq tamamilə süqut edib. 1950-ci illərdə dərsliklərdən çıxarılıb. Əslində, elmi müzakirə kimi 1920-ci illərdə sona çatmışdı".

"New Scientist" jurnalındakı 16 oktyabr 1999-cu il tarixli məqalədə isə bunlar yazılıb:

"Hekkel nəzəriyyəsini "Biogenetik qanun" adlandırdı və bu fikir qısa müddətdə rekapitulyasiya kimi məşhurlaşdı. Əslində isə Hekkelin qanunun tamamilə səhv olduğu yaxın gələcəkdə sübut edildi".

Məsələn, insan rüşeyminin ilkin inkişaf dövründə heç vaxt balıq kimi qəlsəmələr formalaşmır və rüşeym əsla sürünənə və ya meymuna bənzər inkişaf mərhələsi keçirmir.

Bu mövzu ilə əlaqədar əsas xüsusiyyət isə Ernst Hekkelin, əslində, irəli sürdüyü nəzəriyyəsini dəstəkləmək üçün saxta rəsmlər çəkməsidir. Hekkel balıq və insan rüşeymlərini bir-birinə bənzətmək üçün saxta rəsmlər çəkmişdi. Bu saxtakarlıq aşkar olduqdan sonra özünü müdafiə etmək üçün bildirdiyi fikir digər təkamülçülərin də buna bənzər saxtakarlıqlar etdiklərini bildirmək oldu:

"Bu saxtakarlıq etirafımdan sonra özümü biabır olmuş və qınanmış hesab etməliyəm. Lakin mən bununla təsəlli tapıram ki, mənim kimi təqsirkar vəziyyətdə olan yüzlərlə yoldaş, bir çox tanınmış müşahidəçi və məşhur bioloq var ki, onların yazdığı ən yaxşı biologiya kitablarında, tezislərində və jurnallarında mənim qədər etdikləri saxtakarlıqlar, qeyri-düzgün məlumatlar, az-çox təhrif edilmiş, sxemləşdirilib yenidən çəkilmiş şəkillər var".

Məşhur elm jurnalı "Science" 5 sentyabr 1997-ci il sayında Hekkelin rüşeym şəkillərinin saxta olduğunu açıqlayan məqalə yayımlamışdı. "Hekkelin rüşeymləri: saxtakarlıq yenidən kəşf edildi" başlıqlı məqalədə belə deyilir:




"Londondakı "St. George" xəstəxanasının Tibb fakültəsindən embrioloq Maykl Riçardson: "(Hekkelin rəsmlərinin) verdiyi təəssürat, yəni rüşeymlərin bir-birinə çox bənzədiyi təəssüratı yanlışdır", - deyir... O və yoldaşları Hekkelin rəsmlərini çəkdiyi canlıların rüşeymlərini yenidən tədqiq edərək və fotoşəkillərini çəkərək müqayisə edirlər. Riçardson "Anatomiya və embriologiya" (Anatomy and Embryology) jurnalında yazdığı məqalədə: "Rüşeymlər həddindən artıq fərqli görünürlər", - deyə qeyd edir.



"Science" jurnalı Hekkelin rüşeymlərin bir-birinə bənzədiyini göstərmək üçün bəzi orqanları qəsdən rəsmdə göstərmədiyini və ya xəyali orqanlar əlavə etdiyini bildirir. Həmin məqalənin ardında bu məlumatları verir:

Riçardson və tədqiqat qrupunun bildirdiyinə görə, Hekkel təkcə orqanları əlavə etməklə və ya çıxarmaqla kifayətlənməmiş, eyni zamanda, müxtəlif növlərin bir-birlərinə bənzədiyini göstərmək üçün ölçülərinə də əl gəzdirmiş, bəzən rüşeymləri həqiqi ölçüsündən on dəfə fərqli göstərmişdir. Habelə, Hekkel fərqləri gizlətmək üçün növlərin adını rəsmlərinin altında yazmamış və bir növü sanki bütün heyvan qrupunun təmsilçisi kimi göstərmişdi. Riçardson və tədqiqat qrupu qeyd edir ki, əslində, bir-birinə çox yaxın olan balıq növlərinin rüşeymlərində belə görünüş və inkişaf mərhələləri baxımından çox böyük fərqlər var. Riçardson Hekkelin rəsmlərinin biologiyadakı ən böyük saxtakarlıqlardan biri olduğunu deyir.

"Science" jurnalındakı məqalədə Hekkelin bu mövzuda etiraflarının keçən əsrin əvvəllərindən etibarən ört-basdır edildiyi və saxta rəsmlərinin dərsliklərdə elmi həqiqət kimi tədris edildiyi də qeyd edilmişdir: "Hekkelin etirafları rəsmlərinin 1901-ci ildə "Darvin və Darvindən sonra" (Darwin and After Darwin) adlı kitabda istifadə edilməsindən sonra itdi. Rəsmlər ingilis dilindəki biologiya dərsliklərində geniş şəkildə çoxaldıldı".

Qısaca desək, Hekkelin rəsmlərinin saxtakarlıq olması hələ 1901-ci ildə üzə çıxmış, ancaq bütün elm dünyası bu rəsmlərlə bir əsr boyu aldadılmışdır.

## Nəticə

Təkamül nəzəriyyəsini dəstəkləmək üçün edilən bütün elmi saxtakarlıqlar bu nəzəriyyənin elmi açıqlamadan çox ideologiya olduğunu göstərir. Hər ideologiya kimi, bu ideologiyanın da fanatik tərəfdarları var və bunlar təkamülü nəyin bahasına olsa da, sübut etməyə çalışırlar. Nəzəriyyəyə o qədər fanatizmlə bağlanıblar ki, əllərinə keçən hər tapıntını, təkamüllə heç bir əlaqəsi olmasa da, nəzəriyyənin böyük dəlili hesab edirlər. Şübhəsiz ki, bu, elm üçün kədərli mənzərədir, çünki elm dünyasına əsassız doqma uğrunda səhv istiqamət verildiyini göstərir.

Skandinaviyalı elm adamı Soren Lovtrup isə "Darvinizm: bir əfsanənin təkzibi" (Darwinism: The Refutation of a Myth) adlı kitabında bu barədə belə deyir:

"Düşünürəm ki, hər kəs bir elm sahəsinin tamamilə səhv nəzəriyyədən asılı vəziyyətə düşməsini böyük şanssızlıq olduğunu qəbul edəcək. Ancaq biologiyanın vəziyyəti məhz belədir: uzun müddətdir insanlar təkamül mövzularını darvinist məfhumlarla müzakirə edir, "adaptasiya", "seçmə təzyiqi" və ya "təbii seçmə" kimi məfhumlarla. Sonra da bu müzakirələrlə təbii hadisələrin izah edilməsinə kömək etdiklərini zənn edirlər. Əslində isə heç kömək etmirlər... İnanıram ki, darvinizm əfsanəsi bir gün elm tarixindəki ən böyük xəta adlandırılacaq".





# Qəflətdən xilas olmaq üçün

# Quran oxumaq və ayələr üzərində düşünmək

*Qəflət təhlükəsinə qarşı ən yaxşı üsul Allah`ın qullarına yol göstərən bir nur olaraq endirdiyi Quranı oxumaq və onun üzərində düşünməkdir. Quran oxumaq insanın Allah`a yaxınlaşıb Rəbbimizin üstün elm və qüdrətini qavramasına kömək edir. Bundan başqa, insanın daha əvvəl bilmədiyi, düşünmədiyi və düşünüb cavabını tapa bilmədiyi bir çox mövzuda ən açıq və ən doğru məlumatı verir. Bu səbəblə, Quranı səmimi niyyətlə oxuyan və anlayan bir insan qəlbi razı halda Allah`a yönələr.*

*Səmimi şəkildə ayələr üzərində düşünən insan düşüncə və davranışlarındakı səhvləri görür. Bilmədiyi və ya əhəmiyyət vermədiyi üçün edib-etmədiyi şeylərin əhəmiyyətini və ciddiliyini anlayır. Rəbbimizin üstün elm və qüdrətini qavrayır və Allah qorxusu və sevgisi artır. Allah Quranın nazil edilmə məqsədini ayələrində belə xəbər verir:*

*Bu, insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allah`ın tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 52)*

*Həqiqətən, bu Quran ən doğru yola yönəldir və yaxşı işlər görən möminlərə özləri üçün böyük mükafat olacağı ilə müjdə verir. (İsra surəsi, 9)*

*Quranı diqqətlə oxuyan və ayələr üzərində düşünən insan səmimiyyəti ölçüsündə zamanla ayələrin təcəllilərini ətrafında görməyə başlayar; bu da hər an Allah`ı xatırlamasına və qəflətdən qorunmasına səbəb olar. Quranı oxuyan insan dünyada etdiyi hər şeyin hesabını verəcəyini və gördüyü işlərin nəticəsində cənnət və ya cəhənnəmə girəcəyini bilər. Bu həqiqəti görən insan qafil olmaqdan, haqqı unutmaqdan və ya yerinə yetirməməkdən şiddətlə qaçar.*

# DİN XURAFATA DEYİL, QURANA ƏSASLANIR

- Xurafata əsaslanan din anlayışının kökündə nə dayanır?
- Bu yanlış din anlayışından uzaq olmaq üçün nə etmək lazımdır?
- Quran ayələrini şərh edərkən edilən ən böyük səhvlər nələrdir?

İnsan Qurana pis niyyətlə və birtərəfli yanaşdıqda onu anlaya bilməz. Bu, Allah'ın qanunudur. Bir insan nə qədər zəkalı və mədəni olsa da, qeyri-səmimi və pis niyyətlə Quranı dəyərləndirdikdə onu lazımınca anlaya bilməz, doğru şərh edə bilməz və ziddiyyətə düşər. Ona görə, Qurana ön mühakimə ilə yanaşan insanın bu pis niyyətli münasibəti onunla Quran arasında – ayələrdə bildirildiyi kimi – görünməz pərdə çəkər. Bu da Quranı anlayıb qavramasına mane olar. Bu həqiqət "İsra" surəsindəki ayələrdə belə xəbər verilir:

**Sən Quran oxuduğun zaman səninlə axirətə inanmayanların arasına görünməz pərdə çəkdik. (Quranı) anlamasınlar deyə, onların qəlblərinə pərdə çəkib qulaqlarına əngəl qoyduq. Sən Quranda Rəbbini bir tək tanrı olaraq andığın zaman onlar nifrət əlaməti olaraq arxalarını çevirib gedərlər. (İsra surəsi, 45-46)**

## Mütəşabih ayələrlə möhkəm ayələri qarışdırmaq

Qurandakı hökmlər iman gətirənlərin asanlıqla anlayacağı və tətbiq edəcəyi şəkildə açıq və sadə üslubla bildirilmişdir. Bunlara möhkəm ayələr deyilir. Möhkəm ayələr Quranda bildirildiyi kimi, kitabın anası, yəni təməlidir. Möhkəm ayələrdən başqa Quranın mütəşabih ayələri də var. Mütəşabih ayələr müxtəlif təşbeh və bənzətməli mənaları olan ayələrdir. Mütəşabih ayələr Quran haqqında məlumatı olmayan və ya pisniyyətli insanlar tərəfindən tamamilə təhrif edilərək fərqli mənalarda şərh edilə bilər. Bu, Quranda belə bildirilmişdir:

**Sənə Kitabı nazil edən Odur. Onun bir hissəsi möhkəm, digər qismi isə mütəşabih ayələrdir. Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar. Halbuki, onların yozumunu Allah'dan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər. (Ali-İmran surəsi, 7)**

Mütəşabih ayələrin mənaları Allah dərgahında bəllidir. Tarix boyu Qurandakı mütəşabih ayələri müxtəlif pis məqsədlərə görə şərh edən azğın insanlar, məzhəblər və



cərəyanlar olmuşdur. Bunun fitnə olduğu və ancaq qəlblərində əyrilik olanların, yəni doğru yoldan azan, imandan çıxan insanların bu yola əl atdığı ayədə xəbər verilmişdir. Allah istədiyinə bu ayələrin şərhi ilə bağlı elm verə bilər. Ancaq iman gətirənlər ayələrin hamısına inanırlar, qəlblərində əyrilik olan və fitnə çıxaranlar kimi ayələri azğınlıqla yanlış şərh etmirlər.

## Qurana və sünnəyə uyğun olmayan xurafat və bidətlərlə Quranı şərh etməyə çalışmaq

Bəzi insanların ən böyük səhvlərindən biri Quranda və Peyğəmbərimizin (s.ə.v) sünnəsində heç yeri olmayan, dinin adından uydurulmuş bəzi yalan sözlərlə, bidət və xurafatla Quranı şərh etməyə çalışmalarıdır. Bu insanlar, əslində, Qurana deyil, batil inanclara tabe olur, Quranı da bu batil inanclarına uyğunlaşdırmağa çalışırlar. Bu cür insanların məntiqi Quranda belə bildirilmişdir:

**Onlara: "Allah'ın göndərdiyinə tabe olun!" –deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə? (Bəqərə surəsi, 170)**

Bu yanlış şərh etmə Quranda bildirilən əxlaqdan tamamilə fərqli, zidd əxlaq ortaya çıxarır. İslam adından ortaya atılan bu modelin Peyğəmbərimizin (s.ə.v) tətbiq etdiyi, Quranda bildirilən din, əxlaq anlayışı və həyat tərzi ilə heç bir əlaqəsi yoxdur.

Bu insanlar Qurana heç uyğun olmayan, Peyğəmbərimizin (s.ə.v) sünnəsinə və Qurana zidd fikirlər, şərhlər və hökmlərin mənbəyi kimi Quranı göstərməyə çalışırlar. Ancaq bu əsassız iddialara heç bir məntiqli açıqlama verə bilmirlər. Bəzi izahlarının isə nə qədər məntiqsiz və gülünc olduğunu hər şüurlu şəxs asanlıqla görər.

Bilmədikləri halda, ayələri şərh edərək insanları azdırmağa çalışan, uca Rəbbimiz Allah'ın ayələrini qavrama qabiliyyətindən uzaq insanların vəziyyəti Quranda belə xəbər verilmişdir:

**İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan Allah yolundan sapdırmaq və məsxərəyə qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir. Və ayələrimiz ona oxunduğu zaman onları eşitmirmiş, qulaqlarında ağırlıq varmış kimi təkəbbürlə arxasını çevirər. Sən də ona şiddətli bir əzabla müjdə ver! (Rum surəsi, 6-7)**

Quran ilahi kitab olduğuna görə, əlbəttə, digər kitablara bənzəmir və onlarla müqayisə edilə bilməz. Quranın özünəməxsus üslubu var. Quranı, xüsusilə də Quranın mütəşabih ayələrini



– düzgün şərh etmək üçün, eyni zamanda, Quranın ümumi üslubunu lazımınca qavramaq lazımdır. Quranın üslubuna uyğun düşüncə tərzinə malik olmaq Allah'ın Quranla bildirdiyi müxtəlif elmləri anlamağın əsas şərtidir.

## Quranı şərh edə bilməmək

Quran insanlar üçün hər cür lazımi məlumatı ehtiva edən möcüzəvi kitabdır. Bu isə Qurandakı sonsuz ilahi hikmətdən qaynaqlanır. Müəyyən saylı ayələrdə hüdudsuz elm üstün hikmətlə yerləşdirilmişdir. Ayələrin içində zahiri, batini, iç-içə və qat-qat bir çox məna olduğu kimi, ayələrin bir-birləri ilə arasındakı əlaqələrdən də bir çox mənalar çıxır. Bəzən bircə ayənin açıqlaması belə bir kitabın mövzusu ola bilər. Ona görə, Quranı şərh etmək üçün hər şeydən əvvəl Qurana bütövlükdə yiyələnmək şərtdir.

Ayələri doğru şərh etmək, əsl mənanı anlamaq üçün Qurana bütövlükdə yiyələnməklə yanaşı, İslam alimlərinin metodlarını da bilmək lazımdır.

Bu metodlardan ən əsası bir ayəni Quranda olduğu yerə əsasən dəyərləndirməkdir. Quranda çox vaxt bir ayənin mənası o ayədə izah edilən mövzunun bütövlüyündən başa düşülür. Ayənin davamındakı ayələr o ayədəki mənanın tam başa düşülməsinə kömək edir. Bu, İslam ədəbiyyatında ayənin "siyaq və sibaqı", yəni "gəlişi və gedişi" adlandırılır. Ona görə, bir çox ayəni olduğu yerdən ayıraraq, əvvəlini və sonunu nəzərə almadan ancaq içindəki sözlərə görə şərh etməyə çalışmaq çox yanlış mənalar çıxmasına səbəb olur.

Bir çox dövrdə bəzən cahilliklə, bəzən qəsdən ayələrin bu cür yanlış təfsir edilməsi Quranın səhv başa düşülməsinə və Qurana pisniyyətli insanlar tərəfindən müxtəlif böhtanlar atılmasına səbəb olmuşdur.

## Ayələrdəki sözlərin mənalarını da ayələri əsas götürərək anlamağa çalışmaq lazımdır

Bir çox söz Quranda xüsusi mənada işlədilir. Quranın müəyyən hissəsindəki ifadənin hansı mənada işləndiyi çox vaxt həmin ifadənin Quranın başqa hissəsində istifadə edilmə formasından başa düşülür. Bəzən bir sözün birdən çox mənası ola bilər. Belə sözün işləndiyi ayədə hansı mənanı verdiyi o sözün Quranın başqa yerlərində hansı mənada işləndiyindən başa düşülür. Lüğəti açıb Quranda gördüyü hər sözün ilk mənasını əsas götürmək çox yanlış, hətta bəzən tamamilə zidd məna və şərhlərə səbəb ola bilər. Buradan da məlum olur ki, Quran öz-özünü açıqlayan kitabdır. Bir ayənin təfsiri bəzən başqa ayənin və ayələrin mənalarında gizlənə bilər.



### Ayələri doğru şərh etməyin əsas şərtlərindən biri də Quranın məğzini qavramaqdır

Quranın məğzini qavramaq üçün Qurana bütövlükdə yiyələnmək lazımdır. Allah'ın sonsuz mərhəmət, şəfqət və ədalətinin Quranın bir çox ayəsindəki təcəllisi görülüb başa düşülməli və Quran bu düşüncə tərzinə əsasən dəyərləndirilməlidir.

Müsəlmanların şəxsi şərh və fikirlərinə görə Qurandan hökm çıxarmaması da çox mühüm məsələdir. Əməlisaleh müsəlman bu məsələdə böyük İslam alimlərinin şərhlərinə tabe olmalı, onların təfsirlərində verdiyi açıqlamaları əsas götürməlidir.

### Möminlərin Quranı anlamasındakı ən əsas xüsusiyyətləri vicdanları və səmimiyyətləridir

Quran bütün bəşəriyyəti doğru yola çağıran dəvətdir, ancaq Quranı sadəcə iman gətirənlər lazımınca qavraya bilərlər. Möminlərdən fərqli xarakterə malik, din əxlaqından uzaq insanların Quranı anlamaması olduqca normaldır.

Quran çox açıq və sadə dildədir, ancaq səmimi və vicdanlı insanların anlayacağı xüsusiyyətə malik kitabdır. Hələ İslamla tanış olmamış, iman gətirməmiş hər hansı insan səmimi şəkildə, ön mühakiməsiz Qurana yanaşdıqda bu mömin vəsflərinə görə Quranın uca Allah'ın sözü olduğunu vicdanı ilə anlar. Çünki istər üslubundakı heybət, mükəmməllik və sadəlik, istərsə də üstün elm və hikmətlə Quranın insan sözü olmadığını, ilahi kitab olduğunu hər vicdanlı şəxs qəbul edər. Bu vicdanlı insan iman gətirib hörmət və səmimiyyətlə yanaşdığı təqdirdə Quranın hikmətli mənaları, Allah'ın izni ilə, ona açılmağa başlayar.

**"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!" (Hicr surəsi, 9)** ayəsi ilə bildirildiyi kimi, Quranın qiyamətə qədər etibarlı olduğunu və qorunacağını bilən möminlər çox rahatdırlar. Quran insanın hər hökmündən, hər əmrindən qəti əmin olduğu, qəlbində və vicdanında heç bir şübhə olmadan tabe olacağı haqq kitabdır. İnsanların bu cür əmin yolgöstərəninin olması çox böyük nemət və Allah qatından verilmiş rəhmətdir. Allah Quranın möminlər üçün əhəmiyyətini bir ayədə belə xəbər verir:

**... Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

Düşünən İnsan, İyun 2013

İnformasiyalar beyində daimi saxlanmaq üçün hafizədə qeyd olunmuş digər informasiyalarla birləşdirilir. Bu əməliyyatın ən əsas hissəsi isə hüceyrə daxilində baş verən kimyəvi reaksiyadır. Hər hüceyrənin mikro hafizəsi var. Bu mikro hafizəni daşıdığı informasiyanın miqdarına görə nəhəng kitabxanaya bənzətmək olar. Nəsildən nəslə ötürülən bu mikro ölçüdəki nəhəng arxiv DNT molekuludur. Məlum olduğu kimi, DNT molekulu qoşa spiralvarı quruluşdadır. 4 əsas kimyəvi maddədən təşkil olunub: A-adenin, Q-quanin, S-sitozin, T-timin. Bu dörd hərf üçlü kombinasiyalarda birləşərək genetik şifr əmələ gətirir.

## İnformasiyalar necə xatırlanır?

Beyinə bir impuls göndərildikdə beyin hüceyrələrinin DNT molekulundakı genlər əlaqədar rabitə qurmaq üçün yoxlanılır. Rabitəyə ən əlverişli, yəni axtardığımız informasiyaya ən uyğun gen impulslarla qıcıqlandırılır. Sonra eynilə fotoşəkil plyonkası kimi DNT-dəki genin şablonu RNT molekulu kimi hazırlanır. Bu əsnada informasiya qısamüddətli hafizəyə keçir. Əməliyyat nəticəsində əmələ gələn xəbərçi RNT hüceyrənin nüvəsindən ayrılmaq üçün hərəkətə keçir. Bu hərəkət başladıqda informasiya qısamüddətli hafizədən uzunmüddətli hafizəyə yönəlir. Hüceyrənin daxilində informasiyasını zülala çevirmək üçün yola çıxan xəbərçi RNT-lər zülal sintezi mərkəzləri olan ribosomlara 20 dəqiqədə çatırlar.

Bu müddətdə qəfləti bir hadisə baş verib beyinə güclü impuls göndərilərsə, zülal sintezi pozulur. Beləliklə, xəbərçi RNT molekulu informasiyanı zülal molekuluna çevirmədən pozulur. 20 dəqiqə ərzində hafizəyə göndərilən məlumatlar bir daha heç xatırlanmadan silinirlər. Qəza keçirən insanların qəza anını xatırlaya bilməməsinin səbəbi budur.

## Hafizə molekulu necə işləyir?

Məlum olduğu kimi, zülal molekulları amin turşularının müxtəlif say və ardıcıllıqla düzülməsi ilə əmələ gəlirlər. İnsanlarda zülal sintezi üçün 20 növ amin turşusundan istifadə olunur. Hərflərin ardıcıl düzülərək sözləri əmələ gətirməsi kimi, amin turşularının da ardıcıl düzülməsi ilə minlərlə növ zülal molekulu əmələ gəlir. Qəbul olunan impulsların uzunmüddətli hafizəyə qeyd edilməsi informasiyaların

# HİSSLƏRİ SAXLAYAN HAFİZƏ MOLEKULU

zülal molekullarına çevrilməsi ilə olur. İnformasiyalar hafizə molekulları adlanan zülallara çevrilir. Bu əməliyyat ribosomda həyata keçirilir. Xəbərçi RNT də üçlü genetik şifrə uyğun gələn amin turşularının ribosomda bir-birinə birləşməsi ilə bu zülal molekulları sintezlənir. Xatırlama zamanı hüceyrəyə impuls göndərilməsi nəticəsində zülal şəklində saxlanan bu informasiyalar yenidən hafizəyə göndərilir.

## Beyinin içində hiss edən şüur kimə aiddir?

Burada çox mühüm sual doğur: bütün bu şifrləri hiss kimi xatırlayan, yəni yenidən hiss edən şüur kimə aiddir? Beyinin içində elektrik impulsları kimi şifrlənən səsləri, görüntüləri, qoxuları, dadları hiss edən şüur var, hətta bu şüur onlar informasiya kimi lazım gəldikdə yenidən hiss edir. Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Ona görə, bu suala hər şeyin maddədən ibarət olduğunu iddia edən materialistlər və darvinistlər cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Allah bütün bu hissləri hər insanın ruhu üçün ayrı-ayrı yaradır. Bu hissləri yaradan Allah yeganə mütləq varlıqdır.
Allah'ın mütləq varlığı bir ayədə belə bildirilir:

**Allah'dan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allah'ın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allah'ın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur! (Bəqərə surəsi, 255)**

## Beyindəki elektrik impulsu və titrəyiş formaları

Sinir hüceyrələrində yerləşən sinapslar vasitəsilə beynimizə çatan informasiyalar elektrik impulsu və ya titrəyiş formaları ilə tanınırlar. 10-15 saniyə çəkən impulslardan beyinə çatanlar beyin hüceyrələrini qıcıqlandırır, lazımi rabitəni tapıb birləşir. İnformasiyalar beyində pazl hissələri kimi şifrlənirlər. Yeni informasiya beyində rabitə qurmaq üçün əlaqədar informasiyanı axtarır. Əgər beyinə gedən informasiya əvvəlcədən yerləşmiş informasiya ilə rabitə qura bilmir və ya maraq oyatmırsa, lazımsız informasiya adı ilə nişanlanıb xaric edilir. Məsələn, heç bilmədiyimiz dilin sözləri və ya mürəkkəb rəqəmlər çox qısa müddətdə unudulur.





# Əllərimizdəki təqlid edilməz yaradılış

Çayı qarışdırmaq, qəzetin səhifələrini çevirmək, yazı yazmaq kimi adi görünən fəaliyyətləri həyata keçirən əlimiz, əslində, inanılmaz mühəndislik əsəridir. Əl standart quruluşa malik olmasına baxmayaraq, bir-birindən çox fərqli istifadə sahələrində işləyir. Çoxlu sayda əzələ və sinirə malik qollarımız şərtlərə uyğun olaraq əlimizin güclü və ya yumşaq tutmasını təmin edir. Məsələn, insan əli yumruq kimi sıxılmamış vəziyyətdə ikən hər hansı cismin üzərinə 45 kiloqramlıq güclə zərbə endirə bilər, digər tərəfdən baş barmaq və şəhadət barmağı arasında tutduğu millimetrin onda biri qədər naziklikdəki kağız parçasını hiss edə bilər.

Göründüyü kimi, hər iki iş bir-birindən tamamilə fərqlidir. Biri çox incə əyar, digəri isə tam əksinə, böyük güc tələb edir. Lakin biz kağızı alarkən də, yumruq vurarkən də 1 saniyə belə necə etməyi, ikisi arasındakı güc fərqini tənzimləməyi belə düşünmürük. "İndi bir kağız götürəcəyəm, yaxşısı budur ki, 500 qramlıq güc tətbiq edim, indi də su dolu vedrəni qaldıracağam, bunun üçün 40 kiloqramlıq güc tətbiq edim", - demirik. Bunlar ağlımıza belə gəlməz.

Çünki insan əli bütün bu prosesləri eyni anda edəcək şəkildə yaradılmışdır. Əl bütün xüsusiyyətləri ilə birlikdə yaradılmışdır.

Əlin bütün barmaqları funksiyalarına görə ən uyğun uzunluqdadır və ən uyğun yerdədir, bundan əlavə, bir-birlərinə uyğundur. Məsələn, normal baş barmağı olan əllə atılan yumruğun gücü qısa baş barmağı olan əllə atılan yumruğun gücündən çoxdur. Çünki baş barmaq onun üçün seçilmiş uzunluq sayəsində digər barmaqların üstünə qıvrılaraq bükülür, beləcə, onları dəstəkləyərək gücü artırır.

Əlin quruluşunda çox incə detallar var, məsələn, əzələ və sinirlərin yanında bəzi kiçik formalar var. Barmaqlarımızın ucundakı dırnaqlar lazımsız deyil. Yerə düşmüş iynəni götürərkən barmaqlarımız qədər dırnaqlarımız da kömək edir. Əlimizdəki barmaq izlərini əmələ gətirən qırışlar və dırnaqlar sayəsində də kiçik şeyləri asanlıqla götürürük. Bundan əlavə, dırnaqlar barmaqların tutduğu cismə tətbiq etdiyi həssas təzyiqin tənzimlənməsində böyük rol oynayır.

Əlimizi digər orqanlarımızdan ayıran digər xüsusiyyəti yorulmamasıdır.

Tibb və elm dünyası böyük səy göstərərək insan əlinin bənzərini süni surətdə düzəltməyə çalışır. Düzəldilən



robot əllər güc baxımından insan əli ilə eynidir, lakin insan əlindəki həssas toxunma, mükəmməl manevr qabiliyyəti və fərqli işlər görmə bacarıqları robot əldə mümkün deyil.

Belə ki, bir çox elm adamı insan əlinin bütün funksiyalarına malik robot əlin düzəldilməsinin qeyri-mümkün olduğunu düşünür. “Karlsruhe əli” adlanan robot əli düzəldən Hans J. Şnebeli (Hans J. Schneebeli) bu barədə: “robot əllər üzərində nə qədər çox işləyirəmsə, insanların sahib olduğu əllərə o qədər çox heyran oluram. İnsan əlinin gördüyü işin bir qismini belə əldə etmək üçün daha çox zaman keçməlidir”, - deyir.

Digər tərəfdən, əl, əsasən, gözlə ortaq işləyən orqandır. Gözün qəbul etdiyi impulslar beyinə çatdırılır və beyindən gələn yeni əmrlə əl görəcəyi işə uyğun olaraq hərəkətə keçir. Təbii ki, bunlar çox qısa müddətdə və bizim xüsusi səy göstərməyimizə ehtiyac olmadan baş verir. Robot əllər isə ancaq ya görmə, ya da toxunma xüsusiyyətinə əsaslanaraq hərəkət edirlər. Görəcəkləri hər iş üçün müxtəlif əmrlər verilməlidir.

Bundan əlavə, robot əllər ayrı-ayrı funksiyanı yerinə yetirə bilmirlər. Məsələn, piano çala bilən robot əl çəkic tuta bilmir. Çəkic tuta bilən robot əl isə yumurtanı sındırmadan tuta bilmir. Tədqiqatlar nəticəsində yeni-yeni istehsal edilməyə başlayan bəzi robot əllər 2-3 işi birlikdə edə bilir, lakin bu hərəkətlər əlin qabiliyyətləri ilə müqayisədə çox bəsitdir.

Bütün bunlardan əlavə, insanın hər iki əlinin eyni anda mükəmməl uyğunluq içində işlədiyini də nəzərə alsaq, əldəki qüsursuz yaradılışı daha aydın görərik.

Allah əli insanlar üçün xüsusi yaratmışdır. Əlin hər xüsusiyyəti Allah`ın yaratma sənətindəki qüsursuzluğu və bənzərsizliyi bizə göstərir.



Düşünən İnsan, İyun 2013

www.Allahinvarliqdelilleri.com





# TƏƏCCÜB DOĞURAN MÖCÜZƏ: YERİYƏN ZÜLALLAR

**Biz də Musaya: "Əsanı tulla!" – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. Orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Bundan təxminən 150 il əvvəl irəli sürülən təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir. Bu nəzəriyyə hədsiz möcüzələrlə dolu canlıların mənşəyini təsadüflərlə açıqlamağa çalışır. Heç bir konkret elmi fakta əsaslanmasa da, təsirli təlqin metodları ilə insanlar aldadılır. Ancaq elmi nailiyyətlərin artması ilə Allah'ın möhtəşəm yaratmasının incəlikləri üzə çıxarılmışdır. Artıq canlıların quruluş vahidi olan bir zülalın belə təsadüfən meydana gəlmədiyi riyazi cəhətdən sübut edilmişdir. Elektron mikroskopları ilə hüceyrənin içindəki həyat gün üzünə çıxarılır və heyranedici təfərrüatları göstərilir. Bu məqalədə birlikdə bu maraqlı nümunələrdən biri ilə tanış olacağıq. Hz. Musanın əsasının Misirdəki sehrbazların hiyləsini puç etməsi kimi bu məqalədəki dəlillər də dövrümüzün ən böyük hiyləsini puç edir. Gəlin buna birlikdə şahid olaq.



Miozin 5 zülalı heyranedici şəkildə aktin adlı zülalların üzərində yeriyir.

Allah'ın insana verdiyi ən böyük nemətlərdən biri yeriməkdir. Bu sayədə hərəkət edə bilirik. İstədiyimiz yerə gedib ehtiyacımızı asanlıqla təmin edirik. Habelə, bir çox canlı dörd ayaqlı ikən biz iki ayaq üstündə yeriyirik. Elm dünyasında yaxın dövrdə böyük kəşf edilib. Kinezin və miozin 5 adlı zülalların eynilə insan kimi başqa zülallar üzərində yeridikləri aşkar edilib. Üstəlik, bu molekullar yeriyərkən arxalarında orqanoid və vezikul adlanan bağlamalar daşıyırlar. Zülal yeriyərkən lazım olan enerjini ATF molekullarından alır. Bu enerji nəticəsində zülalın üçölçülü formasında dəyişiklik olur. Molekullardakı bu forma dəyişikliyi isə zülalın hərəkət etməsinə səbəb olur.



2 ayaq üstündə yerimək müəyyən təlimdən keçdikdən sonra mümkün olur. Molekulların 2 ayaq üstündə yeriməsi çox qəribədir. Ətrafınızdakı cansız əşyalar havada uçuşsaydı, şübhəsiz ki, təəccüblənərdiniz. Hüceyrədə bu cür heyrətamiz proseslər hər an baş verir. Bunlardan biri miozin 5 və kinezin zülallarının şüurlu insan kimi yeriməsidir. Bu, çox təəccüblü vəziyyətdir. Allah'ın səbəbsiz yaratmasının ən bariz nümunələrindən biridir. Təkcə bu nümunə təsadüfləri ilahlaşdıran təkamül nəzəriyyəsinin nə qədər ağıldan kənar olduğunu göstərir.

Bir zülalın başqa bir zülalın üzərində yeriyərək hərəkət etməsi ən təsirli yaradılış dəlillərindəndir. Bu cür dəlillərdən bəhs edilməsi insanların Allah'ın varlığını daha açıq şüurla görməsinə səbəb olur. Bu nümunələri görən insanları təkamül cəfəngiyatı ilə aldatmaq çətindir.



Kinezin adlı zülal molekulu mikroborucuq adlı başqa zülalın üstündə yeriyir. Bu zülal, eyni zamanda, belində yük daşıyır. Hüceyrənin içində hərəkət etməsi çətin olan yüklər bu yolla lazımi yerlərə çatdırılır. Bir zülalın həm yeriməsi, həm də hüceyrə üçün lazımi yükü daşıması ən maraqlı yaradılış dəlillərindəndir. Burada səbəblər yoxdur. Allah bu cür nümunələrlə səbəbləri də Özünün yaratdığını göstərir.



İnsanın illərdən bəri arzusu olan yeriyən robotlar elm adamları və mühəndislərin birgə fəaliyyəti nəticəsində icad edilmişdir. Bir molekulun eynilə insanlar və ASIMO adlı robot kimi yeriməsi heyrətamizdir. Molekulların hüceyrədə digər böyük molekulların üstündə yeriyərək yük daşıması çox maraqlı yaradılış dəlilidir. Hər an hüceyrələrinizdə saysız-hesabsız zülalın yeriməsi həyatın nə qədər böyük möcüzə olduğunu göstərir.

## Həyat bir-birini əzmək üzərində deyil, həmrəylik üzərində qurulmuşdur

Zülalların insanlar kimi yeriyərək yük daşıması heyranedicidir. Şüursuz molekulların bu cür fədakarlıq etməsi həyatı güclü ilə zəifin mübarizəsi, bir-birini əzmə meydanı kimi göstərən təkamül nəzəriyyəsini təkzib edir. Hüceyrələrimizdə hər an saysız-hesabsız zülalda təcəlli edən bu həmrəylik və fədakarlıq təkamül nəzəriyyəsinin xəyalını qurduğu dünyanın nə qədər yanlış olduğunu göstərir.

# Boş və faydasız işlərdən üz çevirmək

Mömin boş və faydasız işlərlə maraqlanmaz və bu cür işlərlə məşğul olmaz. İnkar edənlər üçün böyük əhəmiyyət kəsb edən dünya işləri möminlər üçün sadəcə dinin tələb etdiyi qədər maraq göstərilən, bundan əlavə heç bir əhəmiyyəti olmayan boş işlərdir. Buna görə də Quranda möminlər "lağlağıdan üz döndərərlər" (Muminun surəsi, 3) deyə təsvir edilirlər.

Ayədə möminin boş və faydasız bir söz və ya hadisə ilə qarşılaşdığı zaman bundan üz çevirib, özünü faydalı bir işə verməsinin lazım olduğu vurğulanmışdır. Bu, hər zaman Allah`ın rizasına ən uyğun rəftardır. Mömin bunu etmək üçün özünü heç vaxt boş buraxmamalı, daim diqqətli olmalı və nə etdiyini bilməlidir. Sadə insanlarla sadə müzakirələrə girmək, dinin mənfəətlərindən başqa hər hansı bir mövzunun mübahisəsini etmək möminə yaraşmaz. Quranda nümunə olaraq möminin rəftarı belə təsvir edilir:

Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər. (Qəsəs surəsi, 55)

Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)

Mömin bir işi bitirdiyi zaman heç dayanmadan başqa bir işlə məşğul olmağa başlamalıdır:

(İşlərini) qurtaran kimi (Allah yolunda) çalış! (Ancaq) Rəbbinə üz tut! (İnşirah surəsi, 7-8)



# Stounhenc

Stounhenc çəmbər formasında yerləşdirilmiş böyük daş bloklardan ibarət tikilidir. Təqribən 4.5 m hündürlüyündə, hər biri təqribən 25 ton ağırlığında təxminən 30 ədəd daş blokun birləşdirilməsindən əmələ gəlmişdir. İngiltərədə yerləşən bu tikili tədqiqatçıların diqqətini çəkir. Tikilməsi və tikiliş məqsədi haqqında bir çox nəzəriyyə irəli sürülmüşdür. Burada bu nəzəriyyələrdən hansının doğru olduğu üzərində dayanmayacağıq. Əsas odur ki, bu tikili təkamül nəzəriyyəsinin bəşəriyyət tarixini açıqlamaq üçün irəli sürdüyü iddiaları əsassız edən nümunələrdən biridir.

Aparılan tədqiqatlar Stounhencin 3 inşaat mərhələsində ərsəyə gəldiyini üzə çıxarmışdır. Bir çox mənbəyə əsasən, Stounhencin ən qədim inşaat mərhələsi e.ə. 2800-cü ilə gedib çıxır. Yəni Stounhencin tarixi bundan təqribən 5000 il əvvələ uzanır. Tarixi mənbələr ilk inşaat mərhələsində ərazidə nəhəng daşlardan kiçik çəmbər qurulduğunu və bu çəmbərin xaricinə də dabandaşı yerləşdirildiyini xəbər verir. Daha sonra nəhəng daşlarla ikinci çəmbər qurulmuş, bundan sonra da çəmbərlərin daxili hissəsinə "mavi daş" adlanan daş bloklar yerləşdirilmişdir.

Bu tikilinin ən diqqətçəkən xüsusiyyətlərindən biri burada istifadə edilmiş mavi daşlardır. Çünki Stounhencin yaxınlığında hər hansı mavi daş mənbəyi yoxdur. Aparılan tədqiqatlar bu daşların Preseli dağlarından tikilinin olduğu yerə gətirildiyini üzə çıxarmışdır. Burada qeyri-adi vəziyyətlə qarşılaşırıq. Çünki mavi daş mənbəyi Stounhencdən təxminən 380 km (quru yolu ilə) uzaqlıqdadır. Əgər dövrün insanları təkamülçü hekayələrdə izah edildiyi kimi ibtidai şəraitdə yaşayan, əllərindəki yeganə alət ağac ling, kötükdən düzəldilmiş sal və daş baltalar olan insanlar idisə, tonlarla ağırlıqdakı bu daşlar Stounhencin olduğu əraziyə necə gətirilmişdi? Bu sualı təkamülçülərin təxəyyül məhsulu olan ssenarilərlə cavablandırmaq mümkün deyil.

Bir qrup tədqiqatçı o dövrün şərtlərini canlandıraraq mavi daşları Stounhencə qədər daşımağa çalışıblar. Bunun üçün ağac linglərdən istifadə etmiş, üç qayığı bir-birinə bağlayaraq mavi daşlara bənzər böyüklükdəki daşların sığacağı sal düzəltmiş, ağac liflərlə salı çay boyu yuxarıya doğru daşımağa çalışmışlar, daha sonra da kobud hazırlanmış təkərlər üzərində daşları təpəyə çıxarmağa cəhd etmişlər.





Ancaq bütün bu səyləri nəticəsiz qalmışdır. Bu, mavi daşların Stounhencin olduğu yerə necə daşındığını anlamaq üçün aparılan sınaqlardan sadəcə biridir. Bir çox sınaq keçirilmiş, həmin dövrün insanlarının hansı daşıma metodundan istifadə etdiyini anlamağa çalışmışlar. Ancaq təkamülçü ön mühakimələr işığında aparılan bu tədqiqatlar heç bir nəticə verməmişdir. Çünki bütün bu sınaqlar Stounhencin tikildiyi dövrdə yaşayanların sadəcə daş və ağac kimi qaba materiallardan istifadə etdiklərini və geridə qalmış sivilizasiyaya malik olduqlarını düşünərək keçirilir.

Burada bir xüsusun da üzərində durmaq lazımdır. Sözügedən sınaqlar keçirilərkən gəmi tərsanələrində hazırlanan müxtəlif modellərdən, qabaqcıl fabriklərdə istehsal edilən kəndirlərdən istifadə edilir, dəqiq hesablamalar aparılır, planlar qurulur. Yəni dövrümüzün texnologiyasının imkanlarından faydalanılır. Buna baxmayaraq, nəticə əldə edilmir. Bundan təqribən 5000 il əvvəl yaşayan insanlar isə tonlarla ağırlıqdakı bu daşları daşımış, coğrafi mövqelərini hesablayaraq çəmbər formasında yerləşdirmişlər. Bütün bunları daş baltalar, kötükdən hazırlanmış sallar, ağacdan düzəldilmiş linglərlə etmədikləri açıq-aşkardır. Stounhenc və digər bir çox meqalit bəlkə də bizim belə təxmin etmədiyimiz texnologiya ilə inşa edilmişdir.

# STROMATOLİTLƏR:

## TƏKAMÜL NƏZƏRİYYƏSİNİ TƏKZİB EDƏN 3.9 MİLYARD İLLİK CANLILAR

Elmə məlum olan ən qədim canlı fosilləri təqribən 3.9 milyard il əvvəl yaşamış bakteriyalara aiddir. Buna görə, təkamülçülər cansız maddələrin öz-özünə, kortəbii təsadüflər nəticəsində əvvəlcə təkhüceyrəli bakteriyaları meydana gətirdiyini iddia edirlər. Bu nağılı dəstəkləmək üçün darvinistlər ilk bakteriyanı öz ağıllarına görə ibtidai adlandırırlar. Onların fikrincə, ibtidai xüsusiyyətlərə malik bu canlıya müxtəlif mühit və şərtlər təsadüfən təsir etmiş və daima müsbət yönlü dəyişikliklər keçirmiş, bəzi möcüzəvi xüsusiyyətləri, məsələn, öz qidasını hasil etməyi, meyoz üsulla bölünərkən birdən mitoz üsulla çoxalmağa başlamağı təsadüfən öyrənmişdir. Bu şüursuz bakteriya bununla da kifayətlənməyib düşünmüş, müxtəlif qərarlar verərək koloniyalar təşkil etmiş, habelə, digər bakteriyalarla biokimyəvi rabitə qurmuş və nəhayət indiki canlılar aləmini əmələ gətirmişdir. Darvinistlərin bu ağıl və məntiqdən kənar iddiası elmin inkişaf etmədiyi dövrlərdə qəbul edilmiş və elmi həqiqət kimi təqdim edilmişdir. Ancaq XXI əsrdə bu vəziyyət dəyişmişdir.

Dövrümüzdə elm dünyasındakı irəliləyişlər ilk ibtidai bakteriya iddiasını bir anda alt-üst etmişdir. Çünki inkişaf edən texnologiya işığında aparılan tədqiqatlar yer üzünün ən kiçik canlılarının darvinistlərin iddia etdiyi kimi ibtidai canlılar olmadığı, çox mühüm kompleks xüsusiyyətlərinin olduğu və ancaq üstün ağıl və bənzərsiz elm ilə bir anda yaradıldığı üzə çıxmışdır. Elm bütün canlılar kimi bakteriyaları da Allah'ın yaratdığını aşkar etmişdir.

### Bakteriyaların varlığı yer üzündəki həyat üçün labüddür

Gözlə görünməyən tərkib hissələrindən ibarət fasiləsiz işləyən və həyatımıza dəstək olan kimya laboratoriyası bütün təbiəti bürüyüb. Hər biri bir yaradılış möcüzəsi olan bakteriyalar da təbiətdən laboratoriya kimi istifadə edən peşəkar kimyaçılardandır. Bakteriyaların xüsusiyyətlərinin böyük qismi hələ elmə məlum deyil. Çünki bu canlıların 0.001 mm-ə yaxın ölçüsü daxili quruluşlarının lazımınca tədqiq edilməsinə mane olur. Buna baxmayaraq, əldə edilən faktlar bu canlılardakı sistemləri bizə tanıdır.

Bakteriyalar təkamülçülərin irəli sürdüyü kimi ibtidai deyil, əksinə, mərhələli təkamül prosesi ilə əmələ gəlmədiklərini

sübut edən mürəkkəb quruluşdadırlar. Təbiətdə hər biri müxtəlif xüsusiyyətə malik bakteriya növləri var. Sianobakteriyalar isə bütün bu müxtəlif xüsusiyyətləri daşıyan ən kompleks bakteriya növüdür. Ancaq bu tərif sianobakteriyaların xüsusiyyətləri və həyata keçirdiyi reaksiyaları açıqlamaq üçün kafi deyil. Sianobakteriyalar xüsusi hüceyrə quruluşuna və kompleks hüceyrədaxili rabitə sistemlərinə malikdirlər.

Sianobakteriyalar 3.9 milyard il əvvəl də mükəmməl fotosintez edən, azot fiksasiyasını (qaz halında istifadəyə yararsız azotun istifadəyə yararlı birləşmələrə çevrilməsi) həyata keçirən, bakteriya qamçısı (flagella) olmadan hərəkət edən, bu hərəkəti həyata keçirmək üçün zülallardan istifadə edən, bir sözlə, tam mütəşəkkil möcüzəvi canlılardır.

## Sianobakteriyaların təkamülü təkzib edən möhtəşəm xüsusiyyətləri

Mavi-yaşıl yosun da adlanan sianobakteriyalar enerjilərini fotosintez ilə əldə edən, elmə məlum olan ən qədim prokariot, yəni birhüceyrəli canlılardır. Bu canlılar hüceyrədaxili reaksiyalarda istifadə etdikləri karbonu atmosferdəki karbondioksiddən hasil edirlər. Eyni zamanda, azot qazını molekula çevirirlər. Bu reaksiyaların eyni yerdə həyata keçməsi üzərində ciddi

Şəkillərdə 3 növ sianobakteriya (göy-yaşıl yosunlar) görünür (a – Oscillatoria b- Nostoc c- Gleocapsa). Təmiz sularda yaşayan bu bakteriyaların çox kompleks xlorofil sistemi var. Demək olar ki, bitki xloroplastları qədər mürəkkəb olan bu sistem sayəsində göy-yaşıl yosunlar fotosintez prosesini həyata keçirirlər. Nostoc sianobakteriyaları, eyni zamanda, azot fiksasiyasında da mühüm rol oynayırlar.







düşünməli xüsusdur və təkamülçülərin ibtidai iddiasını kökündən məhv edir. Azot fiksasiyası prosesindən məsul olan nitrogenaz fermenti oksigenə çox həssasdır. Ona görə, sianobakteriya hüceyrələrində azot fiksasiyası və oksigen ehtiva edən fotosintez prosesi eyni anda baş verə bilməz. Bu maneənin aradan qaldırılması üçün bəzi sianobakteriyalar azot fiksasiyası prosesini xüsusi hüceyrə növü olan heterosistalarda həyata keçirirlər.

Heterosista hüceyrələr özünəməxsus quruluşlarına görə sianobakteriyaların bir-biri ilə uyğun olmayan iki prosesi həyata keçirməsini təmin edir.

Oksigenin daxil olmasının qarşısını almaq məqsədilə heterosista hüceyrələr tərkibində qlikolipid və qoruyucu homogen təbəqə kimi polisaxarid olan xüsusi qılafla örtülüdürlər.

Sukeçirməz zəncirlərin bir-birləri ilə reaksiyası yolu ilə 4 nanometr böyüklüyündə təbəqə əmələ gəlir və bu yolla qazlarla həll olmuş maddələrin keçiriciliyinin qarşısı alınır. Heterosistalarda iki təbəqəli lipiddən ibarət 4 membran var və bunların quruluşuna görə funksiyaları da fərqlidir.

Beləliklə, birlikdə həyata keçirilməsi mümkün olmayan fotosintez yolu ilə karbondioksid fiksasiyası və oksigensiz mühitdə azot fiksasiyası bir-birindən təcrid edilir və sianobakteriyalar funksiyalarını yerinə yetirirlər.

## Təkamülçülər üçün müəmma: sianobakteriya fosilləri

Avstraliyanın Apeks Çert bölgəsindəki qaya təbəqələrini tədqiq etdikdə yaşı 3.9 milyard ilə çatan sianobakteriya fosillərinə, yəni stromatolitlərə rast gəlinib.

Stromatolit sianobakteriya kimi mikroorqanizmlərin qalıqlarının çöküntü ilə birləşib yapışması, toplanması və donması nəticəsində dayaz sularda əmələ gəlir. Prekembri dövründə əmələ gəlməyə başlayan stromatolitlər dəniz suyu ilə daşınan kalsium-karbonat (əhəng daşı) parçalarının, göy-yaşıl yosunların əmələ gətirdiyi sapvarı yığınların üstünə yapışaraq formalaşdırdığı genişlənməyə meyilli təbəqəli orqanizmlərdir. Bu orqanizmlərin zəngin xlorofil tərkibi var. Geoloji dövrlər ərzində dəniz səthinin altında müxtəlif ölçüdə, kürə və ya qübbə şəklində formalaşıblar.





Avstraliyanın Apeks hövzəsində 3.9 milyard illik ən qədim mikroorqanizm fosilləri tapılıb. Yuxarıda və sol yandakı sianobakteriya fosilləri Apeks bölgəsindən çıxarılmışdır və 3.5 milyard il yaşı var.



Yuxarıda şəkildə görünən sapvarı formadakı sianobakteriyalarda hər 10 hüceyrədən biri heterosista adlandırılır və azot fiksasiyası prosesini oksigendən tamamilə izolə edilmiş bu hüceyrələr həyata keçirir.

İnsanlar və heyvanlarda günəş enerjisindən birbaşa istifadə etmək üçün mexanizm yoxdur. Bu enerjini ancaq yaşıl bitki və mikroorqanizmlərin həyata keçirdiyi fotosintez prosesi nəticəsində sintezlənmiş şəkildə qəbul edirlər. Atmosferdəki oksigenin yarısından çoxunu fotosintez edən sianobakteriya növləri təmin edir. Bu canlıların günəş işığı ilə meydana gətirdiyi enerji adi şəkər şəklində toplanır. Əmələ gələn bu şəkər yer üzündəki canlı orqanizmlərin həyatda qalması və böyüməsi üçün lazımi biokimyəvi reaksiyalar və eyni zamanda, tənəffüs üçün vacibdir.

Canlıların həyatlarını davam etdirmək üçün oksigen və karbondioksidə ehtiyacı olduqları kimi, böyümək üçün azota da $(N_2)$ ehtiyacı var. Azot canlı orqanizmində xüsusilə nuklein turşularının, zülalların və vitaminlərin əsas tərkib hissəsini təşkil edir. Atmosferin təqribən 78%-i azot qazından ibarətdir. Ancaq canlılar havadakı azotu ehtiyaclarının olmasına baxmayaraq, qaz halında qəbul edə bilmirlər. Bu qaz canlıların istifadəsinə yararlı hala salınmalı və tükənməməsi üçün təbiətdə dövr etdirilib atmosferə geri qaytarılmalıdır. Bu ehtiyacı da mikroskopik bakteriyalar təmin edir.

Azotu havadan əvvəlcə bitkilər qəbul edir. Bitkilər azotdan qaz şəklində istifadə edə bilməzlər. Azot nitrit bakteriyaları tərəfindən nitritə, nitrit isə nitrat bakteriyaları tərəfindən nitratlara çevrilərək bitkilər üçün istifadəyə yararlı hala salınır.

Təkamülçülərin ibtidai adlandırdığı bakteriyalar azot dövranını həyata keçirərkən fotosintezdə olduğu kimi canlı kimya laboratoriyası kimi işləyirlər və kimya elmini bilməyənlərin heç cür anlamayacağı kompleks kimyəvi reaksiyaları yaradıldıqları gündən etibarən fasiləsiz həyata keçirirlər.



Stromatolitlər fosil qeydlərində çoxdur və 4 milyard ildən etibarən yer üzünün müxtəlif yerlərində mövcuddur. Avstraliyadakı Şark Bey körfəzində 1956-cı ildə kəşf ediliblər. Eyni zamanda, Baham adaları, Hind okeanı, Afrika və Amerika Birləşmiş Ştatlarında da var.

Möcüzəvi mikro canlı olan sianobakteriyaların təkamül nəzəriyyəsinin canlıların təsadüfən əmələ gəlməsi iddiasını təkzib edən xüsusiyyətlərini belə xülasə edə bilərik:

## Möcüzəvi mikrocanlı sianobakteriyanın böyük fəaliyyətləri:

- Sianobakteriyalar planetimizin illik oksigen miqdarının 30%-ni hasil edirlər. Bu, dünyadakı bütün yaşıl bitkilərin hasil etdiyi miqdara bərabərdir.
- Bu bakteriyaların ölçüsü çox kiçikdir, ancaq sayca çoxdurlar. Bir litr suda 100-dən çox sianobakteriya olur və okean canlılar aləminin 10-20%-ni təşkil edirlər. Görünməsələr də, yer üzündə çox geniş yayılıblar.
- Bu bakteriya növü fotosintez, azot fiksasiyası (azotun canlılar tərəfindən istifadəyə yararlı şəklə salınması) və tənəffüs kimi bir-birindən fərqli prosesləri bir hüceyrənin içində həyata keçirir. Bu isə yuxarıda izah etdiyimiz hüceyrə qılafı sistemi tələb edir. Məsələn, bu bakteriyanın azotu fiksə etmək üçün oksigensiz, bütün digər reaksiyalar üçün oksigenli mühitə ehtiyacı var, bunların hər biri müxtəlif qılaf sistemləri tələb edir. Bu quruluşuna görə sianobakteriyalar bakteriyalar aləminin ən mürəkkəb növlərindən biridir.
- 1980-ci ildə sianobakteriyalarda sirkad ritmi olduğu müşahidə edilmişdir. Sirkad ritmi çoxhüceyrəli canlılarda müşahidə olunan, orqanizmin özünü xarici mühitə görə avtomatik tənzimləməsidir. Sianobakteriyaların günün 12 saatında oksigeni hüceyrənin daxilinə qəbul edərək fotosintez və tənəffüs, qalan 12 saatda isə azot fiksasiyası prosesini həyata keçirdikləri müşahidə olunmuşdur.
- Sianobakteriyalar suyun içində qamçıları olmadan hərəkət edə bilirlər. Bu canlıların hər hansı üzvləri olmadan

Stromatolitlərin hər m2-də 3 milyard bakteriya var. Bunlar çöküntü və üzvi maddələrlə birləşərək zaman ərzində öz ölçülərindən 10 milyon dəfə böyük, 1.5 m hündürlüyündə formalar əmələ gətiriblər. Çox yavaş böyüdüklərinə görə 1 m hündürlüyündəki bir stromatolitin təqribən 2000 il yaşı olur.



hərəkət etməsinin sirri 20 ildən çox davam edən tədqiqatlara baxmayaraq, hələ də aşkar edilməmişdir. Ən üst hüceyrə təbəqəsini təşkil edən "S təbəqə" adlı altı bucaqlı təbəqə üçölçülü və simmetrikdir. Bu təbəqənin hüceyrənin hərəkətində mühüm rol oynadığı düşünülür. Çünki simmetriyanı təşkil edən "swm6" adlı gen hər hansı mutasiyaya məruz qaldıqda hüceyrənin hərəkət etmədiyi müşahidə olunmuşdur.

- Xərçəng, virus əleyhinə və ultrabənövşəyi şüadan qoruyan maddələr hasil edən sianobakteriyalardan bu xüsusiyyətlərinə görə insanlar üçün faydalı genetik elmi fəaliyyətlərdə istifadə edilir. Məsələn, Nostoc ellipsosporum növündən olan sianobakteriyanın hasil etdiyi Cyanovirin-N adlı virus əleyhinə zülal HIV vurusunu zərərsizləşdirir. Bu zülal HIV virusunun hüceyrələrə yapışmasını təmin edən oliqosaxaridlərə birləşmə xüsusiyyətinə malikdir. Bununla bağlı tədqiqatlar hələ davam etdirilir.



Yuxarıdakı şəkil: sianobakteriyalardakı altı bucaqlı və simmetrik "S təbəqəsi"nin yuxarıdan və yandan görünüşü

Təkamül nəzəriyyəsi bu canlıların estetik quruluşuna və simmetriyasına cavab verə bilmir. Təsadüfən bu simmetriyanın və qüsursuz nizamın meydana gəlməsi qeyri-mümkündür.

Bu mikrocanlılardakı qüsur–suzluq açıq-aşkar üstün yaradan olan uca

Bakteriyalar təkcə dənizlərdə və ya su mənbələrində yaşamırlar, insan orqanizmindən yer altındakı termitə, hətta bitkinin kökcüklərinə qədər bütün canlılar aləmində yayılıblar. Bu canlılar yer üzünün hər tərəfində yaşayır və funksiyalarını milyard illərdir eyni dərəcədə qüsursuzluqla yerinə yetirirlər. Bütün bunlar, əlbəttə, bir həqiqətə işarə edir: yaradılışa.

Təkamül nəzəriyyəsini müdafiə edənlər də, əslində, bu canlıların ibtidai quruluşda olmadığını çox yaxşı bilirlər. Odur ki, həmin mükəmməl canlıların xüsusiyyətlərini, mexanizmlərini açıqlamağa çalışarkən daima çıxılmaz vəziyyətdə qalırlar. Təkamül mikroskopik canlının varlığını açıqlamaqda aciz olan elmdən kənar nəzəriyyədir.

XXI əsrin inkişaf edən elm və texnologiyası elektron mikroskopu altında təkamül nəzəriyyəsi yalanını bir daha üzə çıxaran yeni aləmi tanıtmışdır. Darvinistlərin yer üzündəki canlılar ilə bağlı getdikcə uzanan suallar zəncirinə beləcə bir yeni sual da əlavə edilmişdir. Aparılan hər tədqiqat, əldə edilən hər nailiyyət, bu canlılarda rast gəldiyimiz hər xüsusiyyət Allah'ın gözlə görünməyən canlıdan necə qüsursuz sənət yaratdığını kəşf etmək və bunu təqdir etmək üçün bir yoldur.





Bu səhifədə verilmiş şəkillərdəki 4000 ildir Avstraliyanın Akula körfəzindəki Hamelin Pul hövzəsində yerləşir.

Avstraliyanın bəzi digər bölgələrində isə 3.9 milyard il yaşı olan stromatolit fosilləri var. Bu stromatolit fosilləri ilə dövrümüzdə yaşayan bakteriyalar arasında heç bir fərq yoxdur. Bu mikroorqanizmlər əsla təkamül keçirməyiblər.



Bakteriya təbəqələri üstünü tədricən çöküntü örtdüyünə görə günəş işığına çatmaq üçün yuxarıya doğru hərəkət edirlər, şəkildə göründüyü kimi, təbəqə üstünə təbəqə əlavə olunaraq qüllələr meydana gətirirlər.

Düşünən İnsan, İyun 2013



Avstraliyanın Pilbara bölgəsindəki bu stromatolit fosilləri prekembri dövrünə aiddir. Şəkildə aydın görünən bu qat-qat təbəqələr stromatolitin yuxarıya doğru böyüyərək formalaşdığını göstərir.

Fosil qeydlərindəki ən qədim makrofosillərdən biri olan aşağıda şəkildə göstərilmiş stromatolit nümunəsi Amerikanın Miçiqan bölgəsindən çıxarılıb.

Təqribən 2.4 milyard il yaşı olan bu stromatolit fosili yer üzünün ən yaşlı mikrocanlıları olan sianobakteriya koloniyalarına aiddir. Stromatolitlərin tədqiq olunması ilə milyard illər əvvəlki dövrün iqlimi, geologiyası, canlı müxtəlifliyi və coğrafiyasına dair faktlar əldə edilmişdir.

Kalsium-karbonat (əhəngdaşı) böyüyən bakteriya lifləri üzərində toplandıqca zaman ərzində təbəqələr əmələ gətirir. Bakteriyaların ətrafdakı sudan karbondioksid əldə edərək fotosintez etməsi bu təbəqələri meydana gətirir.

Suda çökən dənəciklərlə birlikdə minerallar bakteriya koloniyalarını örtən yapışqan mayenin içində qalırlar və çöküntü maddəsinin içində yuxarıya doğru böyüməyə davam edərək yeni təbəqələr meydana gətirirlər.

Bu proses dəfələrlə təkrarlanır və çöküntü təbəqələri əmələ gəlir. Bu formalaşma prosesi dövrümüzdə də davam edir.

3.9 milyard il əvvələ aid fosilləşmiş stromatolitlərə bütün qitələrin qaya süxurlarında rast gəlmək mümkündür.

## Stromatolit fosili

Dövr: Prekembri
Yaşı: 2.2-2.4 milyard il
Bölgə: Miçiqan, ABŞ



Bu fosil ABŞ-nın Miçiqan bölgəsindən çıxarılıb və yer üzündə həyatın ilk dəfə üzə çıxdığı dövrə aid olan stromatolit materiallarının mərmərə bənzəyən nümunəsidir.

Mərmər əhəngdaşının metamorfik formasıdır. Əhəngdaşında çoxlu miqdarda maqnezium olduqda meydana gələn serpantin xoş yaşıl rəngin əmələ gəlməsinə səbəb olur.

Fosil stromatolitlər ən qədim canlı orqanizmlər olan sianobakteriya koloniyalarıdır. Qaya təbəqələri arasında fosilləşmiş, milyard illər yaşı olan bu bakteriyalar çox kompleks quruluşu ilə oksigen hasil edən canlılardır. Gözlə görünməyən bu canlıların həyata keçirdiyi prosesləri müasir texnologiya ilə etmək mümkün deyil. Darvinistlərin ilk ibtidai canlılar olduğunu iddia etdikləri sianobakteriyalar günəş işığından istifadə edərək fotosintez edirlər və suyu oksigen molekulları ilə proton və elektrona çevirirlər. Fotosintezdə rol oynayan orqanları tilakoidlər hüceyrə qılafının içindəki qırışlarda yerləşir. Tilakoidlərin qılafında fiko-bilisom adlanan, fotosistemlər üçün işıq toplama funksiyasını yerinə yetirən xüsusi çıxıntılar var. Bu quruluşda canlı ibtidai ola bilməz.

İstər quruluşu, istərsə həyata keçirdiyi proseslərə baxdıqda 3.9 milyard il yaşı olan bu canlıların yaradıldıqları andan etibarən çox kompleks olduğu, ibtidai canlılar olmadığı aydındır.

## Stromatolit fosili

Dövr: Prekembri
Yaşı: 2.2-2.4 milyard il
Bölgə: Miçiqan, ABŞ







## Stromatolit fosili

Dövr: Prekembri
Yaşı: 2.4 milyard il
Bölgə: ABŞ





# Müsəlmanların ən mühüm vəzifəsi Allah'ın rizasını qazanmaq üçün axirətə hazırlaşmaqdır

Bəzi insanlar həyatları boyu daima bir şey üçün hazırlıq görürlər. Hələ ibtidai sinifdə olarkən yuxarı sinifə keçmək üçün böyük əzmlə imtahanlara hazırlaşırlar. Daha sonra bu hazırlıq universitet üçün davam edir. Universitetdən sonra isə "görəsən, yaxşı iş tapa biləcəyəmmi?" həyəcanı başlayır. Daha sonrakı illərdə insanın bu cəhdi daha yaxşı iş, işində yüksəlmə arzusu, daha yaxşı ev, daha yaxşı avtomobil, daha çox var-dövlət sahibi olma kimi silsilə şəklində davam edir. Şübhəsiz ki, insanın yaxşı təhsil almaq, gözəl işə sahib olmaq, yaxşı həyat tərzi keçirmək kimi istəklərinin olması normaldır. İnsanların səhvi ondadır ki, bu istəklərini əldə etmək üçün əzmlə çalışaraq həyatları boyu etməli olduqları ən mühüm hazırlığı unudurlar. Dünya ilə bağlı bir çox təfərrüat və hadisə bu insanlara (uca Allah`ı tənzih edirik) Allah`ı və axirəti unutdurur.



Hər anlarını Quran əxlaqı ilə yaşamaq üçün səy göstərən möminlər isə dünya həyatında keçirdikləri hər saniyəyə görə Allah dərgahında cavab verəcəklərini bilirlər. Buna görə, həyatları boyu bu məsuliyyəti dərk edərək hərəkət edirlər. Mömin həyatı boyu Allah\`ın vəd verdiyi əbədi axirət həyatına hazırlıq görür. Dünyanın çox qısa, müvəqqəti, bir çox çatışmazlıqlarla dolu, Allah\`ın bir çox hikmətlə yaratdığı imtahan yeri olduğunu anlayır. Bu qısa imtahan mühitindən sonra Allah\`ın canını alacağını, ölümün hər an gələ biləcəyini və ardınca da sonsuz axirət həyatının başlayacağını bilir. Daima Allah\`ın rizasını qazanmaq və axirət həyatını gözəlləşdirmək üçün yollar axtarır.
Allah\`a olan imanını, yaxınlığını, təqvasını daha da artırmağa çalışır. Gözəl əxlaqlı olmaq və bu əxlaqı ətrafına da yaymaq üçün böyük istək və şövqlə cəhd edir. Möminin ciddi cəhdi sonsuz axirət həyatında Allah\`ın razı olduğu və sevdiyi qul olmaq üçündür. Mömin: "Dünyada daha rahat necə yaşaya bilərəm?", "Dünyadakı məqsədlərimə necə çata bilərəm?" - deyə dünyəvi məqsədlər üçün yarışmır, daima Allah\`ın rizasını axtarır, xeyir və gözəlliklər, daha təqvalı olmaq, saleh əməllər etmək üçün faydalı yarış içindədir. Uca Allah Quranda möminin axirət üçün göstərdiyi ciddi cəhdi belə bildirir:

**Ona cəhənnəmi məskən edərik. O, (cəhənnəmə) qınanmış, qovulmuş bir vəziyyətdə daxil olar! Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti qəbul olunar. (İsra surəsi, 18-19)**

*Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz neməti orada tezliklə verərik. Sonra isə ona cəhənnəmi məskən edərik. O, (cəhənnəmə) qınanmış, qovulmuş bir vəziyyətdə daxil olar! Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti qəbul olunar.*
*(İsra surəsi, 18-19)*



Düşünən İnsan, İyun 2013



# KAİNATDA MÖCÜZƏVİ DİNAMİKA: SÜRƏT

Yer kürəsi öz oxu ətrafında bir az yavaş fırlansaydı və ya orqanizminizdəki qan indikindən daha yavaş axsaydı, nə olardı? Bəs Günəşdən gələn işıq yer üzünə bu qədər yüksək sürətlə çatmasaydı? Bəlkə bu mövzular haqqında heç düşünməmisiniz, ancaq bütün bu hadisələrin ən uyğun sürətdə baş verməsi həyatımızı davam etdirməyimiz üçün labüd ünsürdür.

Biz heç fərqində olmadan, həm bədənimizdə, həm də ətrafımızda yaşamağımız üçün lazımi proseslər məhz lazımi sürətdə həyata keçir. Bu sürətdə, məsələn, beyin hüceyrələrinin sürətlə bir-birləri ilə rabitə qurmalarında, göz, qulaq, burun, dil və dəridən gələn siqnalların sürətlə elektrik impulsuna çevrilib sinir hüceyrələri vasitəsilə beyinə göndərilməsində, bitkilərin fotosintez kimi kompleks prosesi həyata keçirməsində, bizdən milyonlarla kilometr məsafədə olan Günəşin işığının böyük sürətlə bizə çatmasında, səsin sürətində və başqa bir çox hadisədə görə bilərik.

Bu proseslərdə bir saniyəlik gecikmə belə insanlara böyük zərər verər, lakin gecikmə heç vaxt baş vermir. Bütün proseslər - Allah'ın izni ilə - ən uyğun sürətdə, qüsursuz həyata keçir. Biz də bu sayədə heç bir çatışmazlıq olmadan həyatımıza davam edirik.

## Kainatdakı sürət

### *Sürət kainatın yaradılışından başlayır: atomun sürəti*

Həyatdakı sürəti, əvvəlcə, kainatın ən kiçik quruluş vahidi olan atomda təhlil edək. Hər atom bir nüvə və nüvənin ətrafında orbitlərdə fırlanan elektronlardan təşkil olunub. Nüvənin içində isə proton və neytron adlandırılan başqa zərrəciklər var. Elektronlar atomun nüvəsinin ətrafında, orbit adlanan yollarda çox böyük nizamla, fasiləsiz fırlanırlar. Elektronların sürəti çox fərqlənir. Ən güclü mikroskopların belə görməyəcəyi qədər kiçik sahədə fırlanan onlarla elektron nüvənin ətrafında müxtəlif orbitlərdə saniyədə 1000 km sürətlə fırlanırlar. Bu sürət bir saniyədə İstanbuldan Antalyaya getmək deməkdir. Bundan əlavə, bu yüksək sürətə baxmayaraq, elektronlar bir-birləri ilə toqquşmurlar.

### Planetlərin fırlanma sürəti

Günəş sisteminin quruluşunu təhlil etdikdə hər təfər-rüatda çox həssas nizam və



incə əyarla qarşılaşırıq. Əgər planetlərin fırlanma sürəti bir az yavaş olsaydı, onda planetlər sürətlə Günəşə doğru cəzb olunar və nəticədə, Günəş tərəfindən böyük partlayışla udulardılar. Bunun tərsi də mümkün olardı. Əgər planetlər daha sürətlə fırlansaydı, bu dəfə də Günəşin cazibə qüvvəsi onları saxlaya bilməz və planetlər kosmosa sovrulardılar.

Halbuki, bu həssas müvazinət hər an, hər saniyə qüsursuz işləyir. Bundan əlavə, hər planet üçün ayrıca həssas müvazinət qurulduğuna da diqqət çəkmək lazımdır. Çünki planetlərin Günəşlə aralarındakı məsafə kimi kütlələri də fərqlidir. Ona görə, hər birinin öz fırlanma sürəti var.

Rəbbimiz bütün həyati funksiyalar üçün möhtəşəm sürət yaratmışdır. Allah'ın izni ilə, bir anda sona çatacaq bu sürət sayəsində bütün kainat mövcudluğunu davam etdirir. Bir ayədə Rəbbimizin yaratdığı bütün varlıqlar üzərindəki sonsuz gücü belə bildirilir:

***Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən, (Allah) həlimdir, bağışlayandır! (Fatir surəsi, 41)***

## Yerin fırlanma sürəti

Yer 24 saatlıq müddətdə öz oxu ətrafında fırlanır və bu sayədə gecə ilə gündüz qısa olur. Qısa olduqlarına görə gecə ilə gündüz arasındakı temperatur fərqi də azdır. Yerin öz oxu ətrafındakı yüksək fırlanma sürəti yer üzündəki temperaturun mütənasib paylanmasına səbəb olur. Beləcə, bir çox canlının yaşaması üçün ideal temperatur mühiti formalaşır. Əgər bu sürət lazımi səviyyədə olmasaydı, yer üzü canlıların həyatı üçün əlverişsiz olacaqdı.

## Yağış damcısının sürəti

Hər yağış damcısı Allah'ın rəhməti ilə yer üzünə narahatlıq verməyəcək sürətlə düşür. Halbuki, yağış damcısı böyüklüyündə və ağırlığındakı hər hansı cismi 1200 metrdən buraxdıqda getdikcə düşmə sürəti artır və yerə təqribən saatda 558 km sürətlə düşür.

Ancaq yağış damcısının yer üzünə düşmə sürəti saatda 8-10 km-dir. Yağış damcılarını tədqiq edən alimlər bu damcıların atmosferin



sürtünmə təsirini artıran və yerə düşməsini yavaşladan formada olduğunu aşkar ediblər.

Əgər yağış damcıları saatda 558 km sürətlə yağsaydı, toqquşduğu hər şeyi dağıdar və Yerdə canlılar yaşaya bilməzdi.

## Orqanizmdəki sürət

### Gözün sürəti

Siz bu cümləni oxuyub bitirənə qədər gözünüzdə təqribən 100 milyard (100.000.000.000) əməliyyat həyata keçirildi. Saatda 500 km sürətlə beyinə impuls göndərən 600 min sinirlə beyinə birləşən göz eyni anda 1.5 milyon impuls qəbul edib bunları tənzimləyir və beyinə göndərir.

Gözə gələn işıq şüaları buynuz qişadan, göz bəbəyindən və daha sonra göz büllurundan keçir. Şəffaf təbəqənin qabarıq üst səthi və göz bülluru işığı sındırır və cismin (şəklin) görüntüsü tərsinə çevrildikdən sonra retina göndərilir.

İşığa həssas hüceyrələr (reseptorlar, kolbacıq və çöpcüklər) işığı elektrik siqnallarına çevirir və sinir uclarını qıcıqlandırırlar. Retinadan gələn görüntü orijinalından fərqli olaraq tərsinə çevrilmiş və tərs tərəfdədir. Ancaq beyin yenidən görüntünü şərh edərək düzünə çevirir. Bu elektrik siqnalları beyinə cismin növü, ölçüsü, rəngi, məsafəsi haqqında xəbər göndərir və bütün bu ardıcıl əməliyyatlar saniyənin 1/10-i qədər qısa müddətdə həyata keçirilir. Görmə prosesi baş verərkən bir saniyədə həyata keçirilən əməliyyatları heç bir müasir kompyuter yerinə yetirə bilməz.

### Ürəyin sürəti

Biz heç fərqində deyilkən orqanizmimizdəki 100 trilyon hüceyrə, damarlarımızda dövr edən qan və bütün orqanlarımız qeyri-adi sürətlə funksiyalarını yerinə yetirirlər.

Ürək dəqiqədə 70 dəfə və hər ilə təqribən 37 milyon dəfədən çox hərəkət edən əzələdir. Bir insanın həyatı boyu təqribən 2.5 milyard dəfə döyünür və təqribən 300 milyon litr qan vurur. Ürək siz yatdıqda belə saatda təqribən 340 litr qan vurur. Başqa sözlə, ürəyimiz avtomobilin yanacaq çənini 1 saatda 9 dəfə doldurar. Fiziki hərəkətlər zamanı, məsələn, qaçarkən ürək sürətini daha da artırır və saatda təqribən 2270 litr qan vurur. Əgər ürək belə sürətlə işləməsəydi və bu qədər çox işi qısa müddətdə görə bilməsəydi, qan orqanizmin hər tərəfinə lazımi vaxtda vurulmaz və bu da bütün orqanların funksiyalarını yerinə yetirməsinə mane olardı.



## Qanın laxtalanma sürəti

Bədənimizin hər hansı yerində qanaxma olduqda yara yerindəki zülallar, fermentlər və hormonlar sürətlə öz aralarında rabitə qurub laxtalanma mexanizmi əmələ gətirirlər. İlk yardımı trombosit adlanan qan lövhəcikləri göstərir. “Fon Villebrand” adlı zülal isə qəza yerini işarələyərək trombositləri gördükdə qarşılarını kəsir və hadisə yerində dayanmalarını təmin edir. Hadisə yerinə gələn ilk trombosit xüsusi maddə ifraz edərək digər dəstələri də köməyə çağırır. Bu zaman orqanizmdəki 20-yə yaxın ferment birləşərək yaranın üstündə trombin adlı zülal hasil etməyə başlayırlar. Trombin ancaq açıq yara olan yerdə hasil edilir. Bu zülal tam vaxtında hasil edilməli və tam vaxtında da hasilatı dayandırılmalıdır. Başlama və dayandırılma əmrini trombini hasil edən fermentlər verirlər.

Burada bəhs etdiyimiz fermentlər, zülallar cansız, şüursuz, kor atomların müxtəlif şəkildə düzülüşündən ibarət maddələrdir. Bunların hər biri yaralanma hadisəsinin əvvəlindən öz vəzifələrini yerinə yetirərək təcili axan qanı dayandırmaq üçün təşkilatlanır, dərman və lazımi zülallar hasil edir, kömək üçün digərlərinə xəbər göndərir, digərləri xəbərin mahiyyətini anlayıb sürətlə hadisə yerinə gəlir və hər biri öz funksiyasını tam yerinə yetirir.

Sistem ən kiçik təfərrüatına qədər qüsursuz və sürətlə işləyir. Əgər bu həyati əhəmiyyətli sistemdə çatışmazlıq olsaydı, ürək, ağciyər və beyin kimi orqanlara gedən yollarda tıxanma və qan itkisindən ölüm baş verərdi.

## Nəticə

Burada çox kiçik hissəsini təhlil etdiyimiz, ancaq bütün həyatımıza hakim olan bu mütənasib sürət uca Allah’ın insanlara rəhmətinin dəlillərindəndir. Həm öz bədənimizdə, həm də kainatın hər guşəsində həyat üçün lazımi proseslərin ən uyğun sürətlə baş verməsi, bəlkə də heç fərqinə varmadığımız nemətdir. Hər prosesin sürətinin ehtiyaca uyğun, həssas şəkildə tənzimlənməsi sayəsində həyat mükəmməl ahənglə davam edir. Allah hər şeyi yoxdan yaratmışdır və hər şeyi hər an qoruyur. Bu həqiqət bir ayədə belə bildirilir:

***Məgər Allah’ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə, O, tutub saxlayır. Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)***

# Quranda hz. İbrahimin duaları

Hal-hazırda milyonlarla insanın həcc ibadətini yerinə yetirmək üçün ziyarət etdiyi Kəbəni inşa edən hz. İbrahim Quranda təkbaşına bir ümmət kimi tanıdılır. Hz. İbrahim oğlu hz. İsmayılla birlikdə bundan minlərlə il əvvəl Allah'ın vəhyi ilə insanların toplaşacaqları və Onu zikr edəcəkləri, ilin müəyyən vaxtlarında oraya həccə gələcəkləri bir ev inşa ediblər. Bu evin Qurani-kərimdəki adı Kəbədir. Hər ikisi bunu ibadət olaraq etmiş və sonra Allah'a belə dua etmişlər:





*O zaman İbrahim və İsmayıl evin bünövrəsini qaldırarkən (dua etdilər): "Ey Rəbbimiz! Bizdən qəbul et! Həqiqətən, Sən eşidənsən, bilənsən! (Bəqərə surəsi, 127)*

Kəbənin inşa edildiyi yer tədricən daha da inkişaf etdi və bu gün Məkkə kimi adlandırdığımız şəhər oldu. Hz. İbrahim həmin yer üçün Allah'a belə dua etmişdi:

*Yadına sal ki, İbrahim ; "Ey Rəbbim, buranı bəladan asudə (uzaq) bir şəhər et, əhalisinin Allah'a və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!"- deyə dua etdikdə, O (Allah) : "Kafir olanlara da bir qədər ruzi verərəm, lakin sonra da cəhənnəm əzabına düçar edərəm. Amma ora (Cəhənnəm) nə fəna bir yerdir!" – deyə buyurdu. (Bəqərə surəsi, 126)*

Hz. İbrahim və oğlu İsmayıl dualarında yalnız öz yaşadıqları dövr üçün deyil, özlərindən sonrakı nəsillər üçün də dua etmişlər:

*"Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar, nəslimizdən də Sənə təslim olan ümmət et, bizə ibadət qaydalarımızı göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!" (Bəqərə surəsi, 128-129)*

Hz. İbrahimin başqa duasında Allah'a yaxınlaşmaq üçün yollar axtardığı belə xəbər verilir:

*Bir zaman İbrahim: "Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!"– dedi. (Rəbbi ona): "Məgər sən inanmırsan?"– dedi. (İbrahim) dedi: "Əlbəttə (inanıram!) Amma (istəyirəm ki,) qəlbim rahat olsun". (Allah) buyurdu: "Quşlardan dördünü tut və onları özünə tərəf çəkib tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah qüdrətlidir, müdrikdir!" (Bəqərə surəsi, 260)*

Ayədən də aydın olduğu kimi, İbrahim peyğəmbərin Allah'dan ölüləri necə diriltdiyini göstərməsini istəməsi imanının zəifliyindən deyildi, əksinə, iman gətirmişdi, amma iman gətirdiyi həqiqəti tam mənası ilə qavramaq istəyindən irəli gəlirdi. O, çox səmimi şəkildə Allah'ın möcüzəsinə şahid olmaq istədi, Allah bu səmimi duasını qəbul etdi.

Hz. İbrahimin atası bütpərəst idi. O, atasına dini təbliğ etmişdi, ancaq atası qəbul etməmişdi. İbrahim peyğəmbər isə Allah'dan atasını bağışlamasını istəmişdi:

*(İbrahim) dedi: "Sənə salam olsun! Mən Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O, mənə qarşı çox lütfkardır. Mən sizi və Allah'dan başqa sitayiş etdiyiniz (bütləri) tərk edir və öz Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə dua etməklə heç vaxt bədbəxt olmayım". (Məryəm surəsi, 47-48)*



Hər hansı səbəbdən zəhərlənən insan zəhərin təsirini məhv edən dərman qəbul etməli və ya zəhər tibbi yolla orqanizmdən xaric edilməlidir. Zəhərlənmə haqqında tibbi məlumatı olmayan bir şəxsin hər hansı bitkidən və ya maddədən istifadə edərək öz-özünü müalicə etməsi mümkün deyil.

Ancaq bəzi canlılar çox insanın təhsil alaraq əldə etdiyi bu biliyə doğulduğu andan malikdir. Şüuru, ağlı, zəkası olmayan heyvanlar bir çox hallarda xəstəliklərini özləri müalicə edirlər. Heyvanların özlərini müalicə etmək üçün istifadə etdikləri üsullardakı diqqətçəkən cəhət hamısının nə edəcəklərini çox yaxşı bilmələri, hansı xəstəliyə nəyin faydalı olduğunu müəyyən etmələridir. Bəs bunu edən, həqiqətən, heyvanların özləridirmi? Heyvanlar bu məlumatları necə əldə ediblər? Təkamülçülər canlıların bu cür davranışlarının bir çoxunun instinktiv olduğunu iddia edirlər, ancaq instinktlərin mənbəyini, bu davranışların ilk dəfə necə ortaya çıxdığını açıqlaya bilmirlər.

Əvvəla, canlıların bunları zaman ərzində öyrənmələri mümkün deyil. Məsələn, zəhərlənən bir heyvan dərhal ölər. Zəhərlənməsinə səbəb olan amili necə aradan qaldıracağını təcrübədən keçirərək öyrənməsi mümkün deyil. Unudulmamalıdır ki, bir heyvanın belə bir şeyi düşünmək üçün şüuru da yoxdur.

Heyvanların öz-özlərini müalicə edərkən nümayiş etdirdikləri şüurlu davranışlarına bir misalla baxaq. Araralar



tropik Amerikada yaşayan tutuquşu növüdür. Cəlbedici rəngləri olan bu canlıların ən təəccüblü cəhəti zəhərli toxumlarla qidalanmalarıdır. İri qarmağı xatırladan dimdikləri ilə çox bərk qabıqları belə qıran bu quşlar zəhərli toxumlar üzrə sanki mütəxəssisdirlər. Bu, olduqca təəccüblü haldır, çünki zəhərli toxumu yedikdə quş zəhərlənməlidir. Ancaq bu baş vermir və quş zəhərli toxumları yedikdən sonra dərhal qayalıqlara doğru uçur və orada gilli qaya parçalarını gəmirib udmağa başlayır. Bu davranışın səbəbi gilli qaya parçalarının toxumların içindəki toksini sorması və zəhərin təsirini aradan qaldırmasıdır. Quşlar bu sayədə toxumları zəhərlənmədən həzm edirlər.

Bir bitkidəki zəhərin necə zərərsizləşdirilməsini araraların öz-özlərinə bilməsi, əlbəttə, mümkün deyil. Canlılardakı bu cür şüurlu davranışların heyvanların özlərindən qaynaqlanmadığı, bunun mənbəyinin təbiətdə mövcud olan başqa bir güc və ya təsir olmadığı da aydındır. Gözlə görünməyən bir güc bütün canlıların davranışlarına nəzarət edir, yəni onlara ilham edir. Bu bənzərsiz güc Allah'a məxsusdur. Üstün elm sahibi olan Allah hər işi yoluna qoyub idarə edəndir, yaratdıqlarını qoruyandır.

# ZƏHƏRİ ZƏRƏRSİZLƏŞDİRƏN QUŞLAR: ARARALAR

Düşünən İnsan, İyun 2013

# Yuxuda yaşadığımız hisslər dünyası



İnsan yuxu əsnasında gözləri qapalı şəkildə yatağında yatır. Ancaq buna baxmayaraq, həqiqi həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, impulsların hamısını yuxuda əslindən tamamilə fərqsiz şəkildə həqiqi surətdə hiss edir. Bu həqiqətə bu məqaləni oxuyan insanların hamısı özləri yuxularında tez-tez şahid olurlar. Məsələn, gecə yatağında səssiz və sakit mühitdə, ətrafında heç kimin olmadığı şəraitdə yatan insan yuxuda özünü çoxlu insanın olduğu, təhlükəli yerdə görə bilir. Var gücü ilə bu təhlükədən qaçdığını, divarın arxasında gizləndiyini həqiqi şəkildə yaşaya bilir. Hətta yuxuda gördükləri o qədər həqiqidir ki, qorxu və təşviş hissini, həqiqətən, təhlükəli şəraitdə olduğu kimi hiss edir. Hər hay-küydə qorxudan titrəyir, ürəyi bərk döyünür, tərləyir, insan bədəni təhlükədə olduqda nə hiss edirsə, fiziki cəhətdən necə reaksiya verirsə, hamısı eynilə baş verir. Əslində isə, beynindən kənarda gördüklərinin heç biri yoxdur.

Yuxuda hündür yerdən yıxılan insan da bunu bütün bədəni ilə hiss edir. Əslində isə, o anda yatağında heç tərpənmədən yatır. Yuxuda ayağı sürüşərək su çuxuruna yıxıldığını görən bir insan bütün paltarlarının islandığını, küləkdən üşüdüyünü hiss edə bilir. Ancaq olduğu yerdə nə su çuxuru, nə də külək var. Hətta çox isti otaqda yatdığına baxmayaraq, nəmliyi və üşüməyi eynilə oyaq vaxtda olduğu kimi hiss edir.

Yuxusunda maddənin əsli ilə təmasda olduğunu iddia edən insan özündən çox əmin ola bilər. Ona maddənin xəyali görüntüsü ilə təmasda olduğunu, xarici aləmin əsli ilə təmasda olmağın mümkün olmadığını izah edən dostunun çiyninə əlini qoyaraq:

“İndi mən xəyalam? Sən əlimi çiynində hiss etmirsənmi? Elə isə necə xəyali görüntü ola bilərsən? Haradan çıxarırsan bu iddiaları? Gəl səninlə gəzintiyə çıxaq, həm bu mövzu haqqında danışarıq, həm də belə bir mövzuya nə üçün inandığını mənə izah edərsən”, - deyə bilər. Gördüyü yuxu o qədər həqiqi olur ki, rahatlıqla avtomobili işə salıb, motora qaz verir və sonra birdən pedala basaraq avtomobili hərəkətə gətirir. Yolda sürətlə gedərkən ağaclar və yol xətləri sürətdən sanki göz aparan görüntü əmələ gətirir. Bir tərəfdən də təmiz dəniz havasını alır. Elə dostuna etiraz etməyə, o anda yaşadıqlarının xəyal olmadığını izah etməyə hazırlaşarkən saatının zənginə oyanır. Ancaq maraqlıdır ki, yuxuda gördüklərinin xəyal olduğuna etiraz edən bu insan oyaq olarkən də gördüklərinin zehnində əmələ gələn xəyali görüntü olduğunu izah edən dostu yanında olsa, ona da eyni şəkildə etiraz edəcəkdir.

İnsanlar yuxudan oyandıqda o ana qədər gördüklərinin xəyal olduğunu anlayırlar, ancaq oyanma görüntüsü ilə başlayan və adına həqiqi həyat dedikləri həyatın xəyal ola biləcəyindən nədənsə heç şübhələnmirlər. Əslində isə, həqiqi həyatımız dediyimiz



görüntünü qavrama forması yuxularımızı qavrama forması ilə tamamilə eynidir. Hər ikisini də zehnimizdə görürük və yuxudan oyanmadıqca onların bir xəyal olduğunu anlamırıq. Ancaq oyandığımız zaman: "Deməli, gördüklərim bir yuxu imiş", - deyirik. Elə isə hal-hazırda gördüklərimizin yuxu olmadığını necə sübut edə bilərik? Sadəcə hələ oyandırılmadığımız üçün olduğumuz anı həqiqi zənn edirik. Hər gecə gördüyümüz yuxulardan daha uzun davam edən bu yuxudan bir gün oyandırıldıqda bu həqiqətlə qarşılaşacağıq və bunun əksini söyləyəcək heç bir dəlilimiz yoxdur.

Dünya həyatının yuxu kimi olduğu, ancaq bu yuxudan böyük oyanma ilə oyandıqda insanların yuxu kimi bir aləmdə yaşadıqlarını anlayacaqları İslam alimləri tərəfindən də dilə gətirilən bir həqiqətdir. Üstün elminə görə Şeyxi-əkbər (ən böyük şeyx) kimi tanınan böyük İslam alimi Muhyiddin Ərəbi bir sözündə Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) bir hədisini söyləyərək dünya həyatını yuxularımıza belə bənzətmişdir:

Həzrəti Muhəmməd əleyhissəlam: "İnsanlar yuxudadır, öldükləri vaxt oyanacaqlar", - buyurmuşdur. Deməli, dünya həyatında gördüyü şeylər yatan şəxsin yuxusunda gördüyü şeylər kimidir. Yəni xəyaldır.

Bir ayədə isə Allah insanların qiyamət günündə yenidən dirildildikdə belə deyəcəklərini bildirir:

***Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu Rəhmanın məxluqata buyurduğu vəddir. Peyğəmbərlər doğru deyirlərmiş!" (Yasin surəsi, 52)***

Ayədən də göründüyü kimi, insanlar qiyamət günü eynilə yuxudan oyanan kimi oyanırlar.

İnsan dərin yuxuya getdiyi və yuxu gördüyü an birdən oyandırıldıqda onu oyandıranın kim olduğunu necə soruşursa, bu insanlar da, eyni şəkildə, onları kimin oyandırdığını soruşurlar. Bu ayədə də diqqət çəkildiyi kimi, dünya həyatı gördüyümüz yuxu kimidir və hər insan bu yuxudan oyandırılacaq və gerçək həyatı olan axirət həyatına dair görüntüləri görməyə başlayacaqdır



Bəzi quşlar yaralı təqlidi edir və beləliklə, düşmənlərinin diqqətini balalarından yayındıraraq öz üzərilərinə çəkirlər. Bir düşmənin yaxınlaşdığını görən dişi quş səssizcə yuvasından uzaqlaşır. Düşməninin qarşısına keçib yerdə çırpınmağa və bir qanadını yerə vurmağa başlayır. Lakin quş tədbirli davranır və düşməni ilə aradakı təhlükəli məsafəni qoruyur. "Yaralı" quşu asan ov kimi görən yırtıcı heyvan ovunu yaxalamağa çalışarkən yuvadan bir xeyli uzaqlaşdırılır. Yırtıcı yuvadan kifayət qədər uzaqlaşdıqda dişi quş bir anda təqlidi dayandırır və yırtıcı heyvan ona çatarkən, dişi quş birdən qanadlanaraq uçur. Bu "teatr səhnəsi" çox inandırıcıdır. İtlər, pişiklər, ilanlar və hətta digər quşlar belə bu oyuna aldanırlar. Quşların yaralı quş ssenarisinə bu gün də alimlər heç bir açıqlama verə bilmirlər.

Bir quş belə bir ssenarini öz-özünə hazırlaya bilərmi? Bunun üçün quş şüurlu varlıq olmalıdır. Bu davranış hər şeydən əvvəl təqlid, zəka və qabiliyyət tələb edir. Həmçinin, bir heyvan özünü tərəddüdsüz düşməninin önünə atmaq üçün çox cəsarətli olmalıdır. Maraqlısı budur ki, quşlar bu davranışı başqalarından öyrənib təqlid etmirlər. Bu müdafiə taktikasına və qabiliyyətinə doğulduqları andan sahibdirlər.

Bu heyvanları belə şüurlu, şəfqətli, mərhəmətli hərəkət etdirən onları bu xüsusiyyətləri ilə yaradan göylərin və yerin Rəbbi olan Allah'dır. Allah bu canlılara ilhamı ilə sonsuz şəfqət və mərhəmətinin nümunələrini göstərir. Allah Quranda qullarına Özünü belə tanıdır:

**O, yaradan, yoxdan var edən, surət verən Allah'dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

